

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

10 dekabr 2025-ci il, çərşənbə
№ 225 (7052)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


# İlk rəsmi səfər...

## Azərbaycan - Slovakiya strateji əməkdaşlığı, qardaşlığı



Bax səh. 2

# Zəfər Paradı: qürur, güc simvolu, yeni gələcəyin təməli

## 5 il öncə verilən mesajlar bu gün reallığa çevrilir



Bax səh. 3

# Baş nazir Milli Məclisə gəldi...

## 2026-cı ilin büdcə zərfinə daxil olan məsələlər üçüncü oxunuşda qəbul edilib

Bax səh. 4

## “Etibarlı Tərəfdaş Konsepsiyası”

Bu günlərdə Prezident İlham Əliyev “Etibarlı Tərəfdaş Konsepsiyası”nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Sənədə əsasən, yeni Konsepsiya gömrük-biznes əməkdaşlığı çərçivəsində idarəetmənin təkmilləşdirilməsini, xarici iqtisadi fəaliyyətin beynəlxalq ticarət-təchizat zəncirinin yeni tələblərinə uyğunlaşdırılmasını və ticarətin asanlaşdırılmasını hədəfləyir. Konsepsiyanın məqsədi sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin və şəffaflığının artırılması, eləcə də iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsidir. Habelə, sahibkarlıq subyektlərinin maraqlarının qorunması, onların gəlir sahələrinin artırılması və ticarətin asanlaşdırılmasında geniş imkanların yaradılmasının təmin edilməsidir.

**“Made in Azerbaijan” brendinin təşviqi genişlənəcək**

Azərbaycan qlobal xarici ticarətin fəal təm-

Bax səh. 3




## Süni intellekt - gündəlik həyatın mühüm bir hissəsi

Bu günlərdə Heydər Əliyev Mərkəzində “İslam dünyasında süni intellekt indeksinin təqdimatı” beynəlxalq konfransının açılışı baş tutub.

Heydər Əliyev Fondunun, Elm və Təhsil Nazirliyinin təşkilatçılığı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilən konfransın məqsədi İslam dünyasında süni intellekt üzrə əməkdaşlığı gücləndirmək, həmçinin süni intellektin etik, sosial və iqtisadi təsirlərini müzakirə etməkdir.

Qeyd edək ki, süni intellektin inkişaf trendlərinin elmi əsaslarla ölçülməsi üçün hazırlanmış “İslam dünyasında süni intellekt indeksi” sənədi də məhz ilk dəfə Bakı konfransında təqdim olunub.

Konfransın açılışında çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai

Bax səh. 5



# Macarıstan-Türkiyə əlaqələrində mühüm mərhələ

Bax səh. 5

## Gömrük-biznes əməkdaşlığı yeni mərhələdə

Bax səh. 5

## “Siyasi elmlər”, yoxsa “siyasətşünaslıq”?

Bax səh. 6

## Yarımçıq...

Azərbaycan xalqına qarşı Cəbhə Partiyasının Sədri

Bax səh. 6

## 16 günlük kampaniya...

Bax səh. 8

# Prezidentlər Bratislavada “Azadlıq Qapısı” abidəsini ziyarət ediblər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini dekabrın 8-də Bratislavada “Azadlıq Qapısı” abidəsini ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın və Slovakiyanın Dövlət himnləri səsləndirildi.

Prezident İlham Əliyev və Prezident Peter Pelleqrini abidənin önünə əklil qoydular.

Qeyd edək ki, bu abidə 1948-1989-cu illərdə keçmiş Çexoslovakiyadan qaçmağa çalışan zaman həlak olanların xatirəsinə həsr edilib.

# Devin qəsrində...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini dekabrın 8-də Bratislavada Devin qəsrində olublar.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına Morava və Dunay çaylarının qovuşduğu məkanda yerləşən qədim qəsr barədə məlumat verildi.

Bildirildi ki, Slovakiyanın rəmzlərindən biri olan Devin qəsri bu ölkənin milli mədəniyyət abidələri siyahısına daxildir. Yazılı mənbələrdə Devin adına ilk dəfə 864-cü ilə təsadüf edən salnamələrdə rast gəlinir. Qəsr 822-907-ci illərdə mövcud olmuş Böyük Moraviyanın tarixində mühüm rol oynayıb.



XIII əsrdə Devin macarların kral və sərhəd qalası olub. 1809-cu ildə Napoleonun ordusu qalanı minalayaraq partladıb. 1896-cı ildə qalanın dağılmasının rəmzi olaraq burada abidə ucaldılıb. Birinci Dünya müharibəsindən sonra qala qalıqlarının üzərində olan dağ massivində ilk mağaralar aşkarlanıb. Ərazidə ümumilikdə fasilələrlə bir əsrdən artıqdır ki, arxeoloji araşdırmalar aparılıb. Minilliklər boyunca Devin qalası qədim insanların məskəni, eyni zamanda, tacirlər və döyüşçülər üçün toplanış yeri olub.

# İlk rəsmi səfər...

## Azərbaycan - Slovakiya strateji əməkdaşlığı, qardaşlığı

Yeni geosiyasi reallıqlar fonunda Azərbaycanın sürətli inkişaf dinamikası beynəlxalq aləmdə xüsusi maraq doğurur. Son illərdə ölkənin siyasi sabitliyi, enerji və nəqliyyat sahəsində qlobal əhəmiyyətli layihələri, həmçinin regionda sülh və əməkdaşlıq gündəliyini irəli sürməsi Bakını dünya üçün mühüm tərəfdaşlardan birinə çevirib. Bu reallıq təkcə böyük güclərin deyil, həm də Avropanın strateji baxımdan əhəmiyyətli dövlətlərinin Azərbaycanla əlaqələri genişləndirməsinə səbəb olur. Məhz bu kontekstdə Slovakiya-Azərbaycan münasibətləri xüsusi vurğulanır: Bratislavanın Bakıya artan marağı enerji təhlükəsizliyi, ticarət, logistika və siyasi dialoq kimi sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın yeni mərhələyə qədəm qoyduğunu göstərir.

## Bratislava Bakıdan kömək istəyir...





Ölkə başçımızın bu günlərdə Slovakiyaya səfəri iki ölkə arasında əlaqələri yeni mərhələyə qaldırır. Qeyd edək ki, bu, Slovakiya Respublikasının tarixində Azərbaycan Prezidentinin bu ölkəyə ilk rəsmi səfəridir. Dövlət başçıları arasında baş tutan geniş tərkibli görüşdə bir çox məqamlara toxunulub. Slovakiya Prezidenti Peter Pelleqrini bildirib ki, bu səfər güclü siqnal verməlidir: əlaqələrimiz sadəcə dostluq əlaqələri deyil, onların hələ də böyük inkişaf potensialı var. Ölkələr arasında ikitərəfli Komissiyanın sonuncu iclası 2024-cü ildə keçirilib, növbəti iclas isə 2026-cı ildə nəzərdə tutulur.

Slovakiya Prezidenti bildirib ki, enerji təchizatı baxımından Slovakiya hazırda olduqca ağır vəziyyətə düşüb. “Görürük ki, uzun perspektivdə Azərbaycan həll variantının bir hissəsi ola bilər. Azərbaycan enerji təchizatının şaxələndirilməsində rol oynaya bilər, çünki cənab Prezident, hazırda biz boru kəmərinin sonundayıq. Əslində, Qərbi Avropa istiqamətində biz hər zaman əvvəldə olmuşuq. İndi isə boru kəmərinin sonundayıq. Təsəvvür edə bilərsiniz bu, nəyin bahasına başa gəlir”, -deyə Pelleqrini deyib.

Prezident İlham Əliyev isə bildirib ki, Slovakiya ilə Azərbaycan arasında əlaqələr bu gün artıq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib: “Ötən il biz əlaqələrimizi ən yüksək səviyyəyə qaldırmış Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni imzaladıq. Həmçinin biz Baş nazirin müavini və müdafiə naziri cənab Kalinyakın ötən ay hərbi paradımızda iştirak etdiyinə görə çox minnətdarıq. Biz bunu aramızda güclü dostluq əlaməti hesab edirik”.

Dövlət başçısı qeyd edib ki, ötən il biz Slovakiyaya qaz təchizatına başladıq: “İstənilən lazımi vaxtda davam etdirməyə hazırıq. Müdafiə və müdafiə sənayesi sahəsində əməkdaşlığımızın gələcəkdə böyük potensialı var. Artıq vacib işlər görülüb, amma daha çox işlər də görülməlidir. Qarabağın yenidən qurulmasında fəal iştirak edən slovak şirkətlərinə dəstəyinə görə minnətdarıq”.

Qeyd edildiyi kimi, Azərbaycanın yeni enerji siyasəti Şərqi Avropa üçün olduqca vacib əhəmiyyət daşıyır. Bu gün Azərbaycan 14 ölkəyə təbii qaz ixrac edir. Bu mənada, gələcəkdə Slovakiyaya ixrac edilən qazın həcminin artırılması da müzakirə predmeti ola bilər.

İki dövlət arasında strateji əlaqələr mühüm perspektivə malikdir. Dövlət başçıları arasındakı səmimi münasibət bunu deməyə əsas verir. Qeyd edək ki, dekabrın 8-də Bratislavada mətbuata bəyanatla çıxış edən Slovakiya Prezidenti Peter Pelleqrini deyib ki, biz strateji tərəfdaşlıq qurmaq və onu inkişaf etdirmək niyyətindəyik: “Slovakiya Azərbaycanı yerləşdiyi regionda strateji əhəmiyyətə malik tərəfdaş hesab edir. Azərbaycan Cənubi Qafqazın ən böyük iqtisadiyyatıdır. O, Asiya və Avropa ilə kəsişmədə yerləşir və zəngin enerji resurslarına malikdir. Mən çox şadam ki, bizim ticarət dövriyyəmiz artmaqdadır. Burada ciddi artım var. Biz bu gün də qeyd etdik ki, burada hələ də





## Slovakiya Azərbaycanı strateji əhəmiyyətə malik tərəfdaş hesab edir

istifadə edilməmiş potensial var”.

İki ölkə arasında ötən il imzalanan Strateji Tərəfdaşlıq haqqında Bəyannaməyə diqqət çəkən Slovakiya Prezidenti qeyd edib ki, qarşılıqlı maraq kəsb edən bütün sahələr üzrə əməkdaşlığımız yüksək səviyyəyə qaldırıla bilər. “Biz gələcəkdə Slovakiya ilə Azərbaycan arasında daha sıx əməkdaşlıq edəcəyik - müdafiə sənayesi, müasir texnologiyalar, tələbə mübadiləsi, turizm, mədəniyyət və digər sahələrdə. Azərbaycan Slovakiyada aparıcı rol oynaya bilər. Söhbət bizim enerji təchizatının şaxələndirilməsindən gedir. Biz, əlbəttə, bilməliyik ki, uzunmüddətli perspektivdə Azərbaycan bizim üçün strateji tərəfdaş ola bilər. Bizim heyətlər danışıqları davam etdirəcəklər ki, bu, Slovakiya üçün də məqbul bir anlaşma olsun və biz də Azərbaycanın resurslarından istifadə edə bilək”, - deyə dövlət başçısı vurğulayıb.

Paralel olaraq müdafiə sənayesinin inkişafında da əməkdaşlıq perspetkivləri açıqlanıb. Bildirilib ki, iki ölkə birgə istehsal üzərində işləyə və birlikdə istehsal edilən məhsulları üçüncü ölkələrə sata bilər.

## Azərbaycan Slovakiya və qonşularının qaz təchizatının həcmini artıra bilər

Mətbuata açıqlamasında Prezident İlham Əliyev Slovakiyaya rəsmi səfərinin iki ölkə arasındakı əlaqələrə çox müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib. Dövlət başçısı bildirib ki, səfər zamanı həm təkbətək formatda, həm nümayəndə heyətlərinin iştirakı ilə aparılan danışıqlar bir daha onu göstərir ki, Slovakiya və Azərbaycan, sözün əsl mənasında, dost ölkələrdir və strateji tərəfdaşlardır. “Qeyd etdiyiniz kimi, keçən il Slovakiya və Azərbaycan Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalamışlar. Bu, əlaqələrimizi ən yüksək səviyyəyə qaldıran bir sənəddir və o sənədin imzalanmasından sonra biz bütün istiqamətlər üzrə çox fəal əməkdaşlığı görürük. Siz artıq bizim ikitərəfli gündəliyimizlə bağlı geniş məlumat verdiniz. Sadəcə olaraq, əlavə etmək istərdim ki, qeyd etdiyiniz bütün istiqamətlər üzrə bizim müştərək komandalarımız fəal işləyir. Birgə iqtisadi işçi qrup öz fəaliyyətini genişləndirir. Ənənəvi əməkdaşlıq sahəsi olan energetika üzrə konkret layihələr icra edilir. Keçən il ilk dəfə olaraq Azərbaycan qazı Slovakiyaya təchiz edilmişdir və Slovakiyanın ehtiyacları olan səviyyədə, istənilən həcmdə Azərbaycan enerji resurslarını təmin edə bilər”, -deyən Prezident İlham Əliyev bildirib ki, Azərabycan boru kəmərləri ilə ixrac edilən qazın təchizatçı ölkəsi olaraq birinci yerdədir. Yeni qaz yataqlarının işlənməsi nəticəsində əlavə resurslar əldə ediləcək və təbii ki, həm Slovakiyaya, həm də onun qonşularına Azərbaycan qazının təchizatı daha da böyük həcmdə mümkün olacaq.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan müdafiə sənayesi sahəsində əməkdaşlığı sənayenin inkişafı nöqteyi-nəzərindən görür: “Biz müharibə aparmaq fikrində deyilik. Yəni, bizim üçün müharibələr artıq keçmişdə qalır və sadəcə olaraq, burada bir sinergiyanın yaradılması üçün Slovakiya texnologiyaları ilə Azərbaycan maliyyə imkanlarını birləşdirərək yeni məhsulların istehsalı dünya bazarları üçün də maraqlı ola bilər. Həm də ki, bu, texnoloji inkişafın da bir qolu olaraq bizə böyük faydalar verəcəkdir. Biz bu istiqamətdə konkret layihələr üzərində çalışırıq”.

Dövlət başçısı bildirib ki, Azərbaycan öz xarici siyasət prioritetlərini çoxdan müəyyən edib. “Biz, eyni zamanda, bu gün Şərqlə Qərb arasında müəyyən bir körpü rolunu oynayırıq. İnfrastruktura, bağlantılara, nəqliyyat sektoruna qoyduğumuz sərmayə bu gün imkan verir ki, Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin önəmli parçasına çevrilsin. Biz Orta Dəhliz layihəsində fəal iştirak edirik. Orta Asiyanı Avropa ilə birləşdirən ən etibarlı və ən təhlükəsiz marşrut Azərbaycan ərazisindən keçir”, - deyən Prezident vurğulayıb ki, gələcək illərdə

## Biz müharibə aparmaq fikrində deyilik...

bağlantılar və nəqliyyat sahəsinə əlavə vəsait qoyaraq biz öz imkanlarımızı genişləndirəcəyik: “Hesab edirəm ki, biz Slovakiya ilə Azərbaycan arasındakı əlaqələrin inkişafında bu sahəni də diqqətdən kənarda qoymamalıyıq. Çünki bunun çox böyük potensialı vardır. Eyni zamanda, bu gün biz informasiya texnologiyaları, data mərkəzlərinin yaradılması haqqında danışmışıq. Burada Azərbaycanın üstünlüyü ondadır ki, bizdə kifayət qədər böyük enerji potensialı var. Bu gün Azərbaycanda istifadə olunmayan enerji potensialı təxminən 2 giqavata bərabərdir və növbəti beş il ərzində bu, 8 giqavata çatdırılacaq. Təbii ki, süni intellekt və data mərkəzlərinin fəaliyyəti üçün enerji mənbəyi əsas amillərdən biridir. Əlbəttə ki, iqlim də burada önəmli amildir. Baxmayaraq, biz Cənub ölkəsiyik, amma bizim çox soyuq bölgələrimiz də var ki, orada ilin böyük hissəsində şaxtalı hava şəraiti mövcuddur. Ona görə beynəlxalq data mərkəzləri habı kimi biz öz rolumuzu görürük və Slovakiya şirkətləri ilə bu istiqamətdə çalışmaq fikrindəyik”.

Prezident İlham Əliyev Slovakiya dövlət baçısını ölkəmizə rəsmi səfərə dəvət edib.

***P.İSMAYILOV***

# Dostluq nümunəsi

## Prezident İlham Əliyevin Slovakiya Milli Şurasının sədri ilə təkbətək və geniş tərkibdə görüşləri olub

Dekabrın 9-da Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Milli Şurasının sədri Rixard Raşi ilə təkbətək və geniş tərkibdə görüşləri olub.



AZƏRTAC xəbər verir ki, Slovakiya Milli Şurasının sədri dövlətimizin başçısını qarşıladı.

Azərbaycan Prezidenti xatirə kitabını imzaladı.

Əvvəlcə Prezident İlham Əliyevin Slovakiya Respublikasının Milli Şurasının sədri Rixard Raşi ilə təkbətək görüşü oldu.

Sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş oldu.

Slovakiya Milli Şurasının sədri dövlətimizin başçısını Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması və tarixi normallaşdırma sənədi ilə əlaqədar təbrik etdi.

İki ölkənin parlamentləri arasında mövcud əlaqələrdən məmnunluğunu bildirən Rixard Raşi Azərbaycana, Qarabağa səfərini xatırladı, işğaldan azad edilmiş Ağdamın Baş Qərvənd kəndinin yenidən qurulmasında Slovakiya şirkətlərinin iştirakını ölkələrimiz arasında dostluğun nümunəsi kimi qiymətləndirdi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında keçən il strateji tərəfdaşlıq sənədinin imzalandığını və əlaqələrimizin bu zəmində inkişafını vurğuladı.



Görüşdə Azərbaycanla Slovakiya arasında parlament diplomatiyasının əhəmiyyətinə toxunuldu, beynəlxalq parlamentlərarası təsisatlar çərçivəsində ölkələrimizin parlament təsisatları xətti ilə əməkdaşlıq məsələləri nəzərdən keçirildi.

Söhbət zamanı enerji, müdafiə sənayesi, humanitar, idman, birbaşa aviareyslər, turizm və digər sahələrdə əməkdaşlıq üçün böyük imkanların olduğu qeyd edildi.

# İlham Əliyev Robert Fitso ilə görüşüb

Dekabrın 9-da Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə təkbətək görüşü olub.



AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan-Slovakiya strateji tərəfdaşlıq əlaqələrinin inkişafından məmnunluq bildirildi. Ötən il Baş nazir Robert Fitsonun ölkəmizə, hazırda isə Azərbaycan Prezidentinin Slovakiyaya rəsmi səfərlərinin ikitərəfli münasibətlərimizin genişləndirilməsinə böyük töhfə verəcəyinə əminlik vurğulandı.

Siyasi əlaqələrimizin yüksək səviyyədə olduğu qeyd edilərək, digər istiqamətlər üzrə də əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların mövcudluğu bildirildi.

Robert Fitso Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı əldə edilmiş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı regional sülhün təmin olunması istiqamətində Azərbaycanın bundan sonra da səylərini davam etdirəcəyini vurğuladı.

Görüşdə işğaldan azad edilmiş torpaqlarımızda Slovakiya şirkətinin iştirakı məmnunluqla qeyd olundu, ölkələrimizin arasında əməkdaşlığın inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.



# Zəfər Paradı: qürur, güc simvolu, yeni gələcəyin təməli

## 5 il öncə verilən mesajlar bu gün reallığa çevrilir

2020-ci ilin Azərbaycan tarixində xüsusi yeri var - Zəfər, qələbə, ədalətin bərpası ili kimi yadda qalan bu dövr müasir Azərbaycanın yeni inkişaf mərhələsini formalaşdırdı. Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı Zəfər gücümüzün, qüdrətimizin və inamımızın təcəssümü idi. 2020-ci ilin dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş Zəfər Paradı isə yalnız hərbi güc nümayişi deyildi - bu, Azərbaycan xalqının 30 ilə yaxın davam edən ədalət axtarışının reallığa çevrilməsinin, beynəlxalq hüququn bərpasının və tarixi ədalətin öz yerini tapmasının ən möhtəşəm simvollarından biri kimi yadda qaldı. Azərbaycan 44 günlük Vətən müharibəsi ilə təkcə torpaqlarını azad etmədi, həm də bütün dünyaya mühüm bir presedent göstərdi: haqq-ədalət gec-tez qalib gəlir və dövlət öz suverenliyini bərpa etmək hüququndan heç zaman məhrum edilə bilməz. Bu qələbəni təmin edən əsas amillərdən biri uzun illər ərzində formalaşdırılan peşəkar ordu, müasir hərbi texnologiyalar və dövlətin ardıcıl şəkildə həyata keçirdiyi ordu quruculuğu siyasəti oldu. Məhz bu siyasətin nəticəsi idi ki, Azərbaycan Ordusu 2020-ci ilin payızında dünyanın hərbi dairələrində geniş rezonans doğuran müasir döyüş taktikaları ilə qətiyyətli zəfər qazandı.

Zəfər Paradı Azərbaycan Ordusunun gücünün, xalqın birliyinin və dövlətin siyasi iradəsinin parlaq təcəssümü idi. Parad həm mənəvi baxımdan, həm də hərbi-siyasi mesajları ilə xüsusi əhəmiyyət daşıyırdı. 30 illik fasilədən sonra qələbənin birbaşa şahidi olan xalq öz ordusunun möhtəşəm yürüşünü izləyərkən qürur, sevinc və milli oyanış duyğularını bir daha yaşadı. Bu parad yalnız bir mərasim deyildi - o, Azərbaycan tarixinin yeni mərhələsinin rəsmi elanına çevrilmişdi və bu gün, 5 il sonra həmin mərasimin əsl mahiyyəti daha aydın görünür.

## 30 ilə yaxın gözlənilən qələbənin triumfu...

30 ilə yaxın işğal altında saxlanılan torpaqların azad edilməsi xalqımızın ruhunda toplanmış ağrının qürur hissinə çevrildiyi tarixi an idi. Şəhidlərin ruhuna ehtiram, qazilərin şücaətinə minnətdarlıq və ordunun fədakarlığı bu mərasimin ana xəttini təşkil edirdi. Bu mənada Zəfər Paradı milli həmrəyliyin ən yüksək formasını nümayiş etdirdi. Mərasimdə nümayiş olunan qənimətlər, xüsusilə erməni ordusundan ələ keçirilmiş hərbi texnikanın sərgilənməsi Azərbaycan Ordusunun peşəkarlığının, strateji üstünlüyünün və döyüş meydanında əldə etdiyi nəticələrin real təsdiqi idi. Bu həm də illərlə davam edən təxribatların, işğalın və beynəlxalq ədalətsizliyin cavabının necə verildiyini dünyaya göstərirdi. Zəfər Paradının mənəvi tərəfinin ən mühüm elementlərindən biri Şuşa fatehlərinin xüsusi keçidi oldu. Şuşanın azad olunması Azərbaycan tarixində dönüş nöqtəsidir. Parad zamanı bu qəhrəmanların addımları həm ordunun rəşadətini, həm də xalqın inadkar mübarizə ruhunu simvolizə edirdi.

## Zəfər paradı bölgədə yeni münasibətlər sisteminin əsasını qoydu

Zəfər Paradı həm də gələcək üçün bölgədə qurulacaq yeni siyasi-strateji reallıqların elan meydanı kimi yadd aqaldı. Paradın hərbi-siyasi mesajları Cənubi Qafqazda güc balansının dəyişdiyini, Azərbaycanın yeni regional nizamın əsas aktorlarından birinə çevrildiyini açıq şəkildə göstərirdi. Mərasimdə nümayiş etdirilən yeni nəsil silah sistemləri, Azərbaycan Ordusunun modernləşdirilmiş strukturu və qələbədən sonra formalaşan hərbi-siyasi güvənlik mühiti region ölkələri üçün açıq mesaj idi: Cənubi Qafqazın gələcəyi Azərbaycan olmadan müəyyən edilə bilməz. Bu, həm də Ermənistan üçün mühüm siqnal idi - artıq işğal dövründəki status-kvo birdəfəlik aradan qalxıb və regionda yeni reallıq yaranıb.

Bu mənada Zəfər Paradı yalnız Azərbaycan üçün deyil, bütün Cənubi Qafqaz üçün dönüş nöqtəsi idi. O, yeni münasibətlər sisteminin başlanğıcını formalaşdırdı, siyasi balansların dəyişməsi üçün start nöqtəsinə çevrildi və diplomatik proseslərə də öz istiqamətləndirici təsirini göstərdi.



## Zəfər Paradının siyasi əhəmiyyəti: verilən mesajlar, Şuşa Bəyannaməsinin müjdəsi

Beş il sonra Zəfər Paradına bu günün prizmasından baxdıqda onun siyasi əhəmiyyətinin nə qədər böyük olduğu daha aydın görünür. Parad sadəcə bayram mərasimi deyil, post-müharibə dövrü üçün siyasi xəritənin cızıldığı bir tribuna idi. Mərasimdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı Azərbaycan-Türkiyə müttəfiqliyinin strateji mahiyyətini aşkar şəkildə göstərdi. Bu iştirak həm dünyaya, həm regiona, həm də Ermənistana açıq mesaj idi: iki ölkənin birliyi sarsılmazdır və bu birlik regionda yeni təhlükəsizlik formatının əsas dayağına çevriləcək.

Məhz həmin parad Şuşa Bəyannaməsinin siyasi müjdəsi kimi qəbul edilə bilərdi. Bir neçə ay sonra imzalanan bəyannamə türk dünyasında ilk dəfə olaraq iki dövlət arasında müttəfiqlik münasibətlərini rəsmi şəkildə təsbit etdi və bu münasibətlər hərbi-siyasi inteqrasiyanın ən yüksək mərhələsinə qədəm qoydu.

Qələbədən sonra formalaşan diplomatik reallıqlarda Azərbaycan təkcə regional güc kimi deyil, həm də qlobal siyasi təşəbbüslərə təsir göstərən aktor kimi önə çıxmağa başladı. Paradın siyasi mənası həmçinin ondan ibarətdir ki, dünya dövlətləri Azərbaycanla əməkdaşlıqda maraqlıdır və bu qələbə ölkənin xarici siyasətində yeni imkanlar açmışdır.

## 5 il sonra bu gün...

Beş il sonra 2020-ci ilin Zəfər Paradı yalnız qələbənin simvolu kimi deyil, həm də bu gün regionda yaşanan real siyasi proseslərin təməlini qoyan hadisə kimi dəyərləndirilir. Bu müddət ərzində Azərbaycan həm siyasi, həm hərbi, həm də iqtisadi sahədə daha da güclənib. Azad edilmiş ərazilərdə geniş miqyaslı bərpa və quruculuq işləri aparılır, həmin bölgələr sürətlə yenidən məskunlaşır və ölkə öz tarixi torpaqlarına həyat qaytarır.

Bu 5 ildə Azərbaycan sülh gündəliyini irəli sürüb və regionda yeni əməkdaşlıq mühiti yaratmağa çalışıb. Ermənistanın müxtəlif təxribatlarına baxmayaraq, Azərbaycan bu dövrdə sabitlik və qarşılıqlı əməkdaşlıq mühiti formalaşdırmaq səylərindən dönməyib. Bu gün regionda yaranmış yeni siyasi reallıq Zəfər Paradının meydanda verdiyi mesajların doğruluğunu təsdiq edir. Zəfər Paradı Azərbaycanın gücünün, əzminin, birliyinin və öz yoluna sadiqliyinin ən parlaq simvolu olaraq qalır.

***P.İSMAYILOV***

---

# "Etibarlı Tərəfdaş Konsepsiyası"

## Ticarətin asanlaşdırılması Azərbaycanın şəffaf gömrük və logistika mərkəzinə çevrilməsini təmin edəcək



Bu günlərdə Prezident İlham Əliyev "Etibarlı Tərəfdaş Konsepsiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Sənədə əsasən, yeni Konsepsiya gömrük-biznes əməkdaşlığı çərçivəsində idarəetmənin təkmilləşdirilməsini, xarici iqtisadi fəaliyyətin beynəlxalq ticarət-təchizat zəncirinin yeni tələblərinə uyğunlaşdırılmasını və ticarətin asanlaşdırılmasını hədəfləyir. Konsepsiyanın məqsədi sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin və şəffaflığının artırılması, eləcə də iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsidir. Habelə, sahibkarlıq subyektlərinin maraqlarının qorunması, onların gəlir sahələrinin artırılması və ticarətin asanlaşdırılmasında geniş imkanların yaradıılmasının təmin edilməsidir.

**"Made in Azerbaijan" brendinin təşviqi genişlənəcək**

Azərbaycan qlobal xarici ticarətin fəal təmsilçisi kimi tərəfdaş ölkələrlə ticari münasibətləri davamlı olaraq genişləndirir, öz ixrac potensialını artıraraq müxtəlif qitələrə mal göndədiir. Xarici iqtisadi-ticari əlaqələrin inkişaf tələbatlarına uyğun olaraq sərhəd-keçid proseslərinin optimallaşdırılması, rəqəmsal keçid alətlərinin tətbiqi yolu ilə daha asan ticari infrastrukturlar qurulub. Ölkəmizdə həyata keçirilən kompleks islahatlar çərçivəsində daha çevik ixrac mexanizmləri formalaşdırılıb, "Made in Azerbaijan" brendinin beynəlxalq ticarət platformalarında təşviqi ticari landşaftı daha da zənginləşdirib, milli daşıyıcılarımızın qlobal statusa malik şirkətlər üçün müraciət subyektlərinə çevrilməsinə, biznes palatalarında daha fəal yer almalarına səbəb olub.

Bütün bunnlara rəğmən, meydana çıxan yeni qlobal çağırışlar, dünya miqyasında gömrük-biznes əməkdaşlığında etibarlı tərəfdaşlıq modelinin formalaşdırılması xarici ticarət fəaliyyətində biznes subyektlərinə iqtisadi üstünlüklər qazandırmaqla yanaşı, ticarət-təchizat zəncirində gömrük əməliyyatlarının sadələşdirilməsinə və optimallaşdırılmasına da imkan yaradıb. Bu baxımdan gömrük xidmətlərinin modernləşdirilməsinə xidmət edən etibarlı tərəfdaşlıq modelinin tətbiqi labüdləşib.

"Yaşıl iqtisadiyyat"ın inkişafına xüsusi önəm verən Azərbaycan beynəlxalq ticarətdə rəqabətdən geri qalmamaq və logistika imkanlarını daha da artırmaq, eyni zamanda ixracın təşviqi və yeni bazarlara çıxış qabiliyyətini genişləndirmək üçün yeni prioritet istiqamətlər müəyyənləşdirib və burada əsas xətlərdən biri gömrük-biznes əməkdaşlığını ən yüksək səviyyətə çatdırmaqdır. Qlobal trendlərə əsaslanan həmin prioritetlərin tələblərinə əsasən, gömrük-biznes münasibətlərində etimad qazanmış iqtisadi subyektlər üçün xarici ticarət sahəsində idarəetmənin optimallaşdırılması və səmərəliliyin yüksəldilməsi nəzərdə tutulur.

**"Yaşıl dəhliz" sisteminin yeni modeli**

Konsepsiya sənədinə əsasən, "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnun səlahiyyətli iqtisadi operator statusu ilə əhatələnməsi və səlahiyyətli iqtisadi operatorların dairəsinin genişləndirilməsi, gömrük anbarının və gömrük təmsilçiliyinin qlobal çağırışlara uyğunlaşdırılması, biznes subyektlərinin inkişafı üçün münbit şərait və etibarlı ticarət mühiti yaradılması nəzərdə tutulur. Həmçinin, gömrük orqanları tərəfindən biznes subyektlərinə təqdim edilən sadələşdirmə mexanizmlərinin artırılması və müvafiq dövlət orqanlarının etibarlı tərəfdaş sisteminin qurulmasına aktiv cəlb edilməsi, "dövlət-sahibkar-istehlakçı" zəncirinin işləmə mexanizminin sadələşdirilmiş səviyyəyə çatdırılması hədəf kimi müəyyənləşib.

Ümumilikdə, "yaşıl texnologiyalar" infrastrukturunun qurulması sayəsində ticarət-təchizat zənciri boyu təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, təhlükəsiz və sadələşdirilmiş ticarətin təşviqi, gömrük-biznes dialoqunun qurulması mümkün olacaq ki, bu da həm yerli ticarət iştirakçılarının apardığı ticari əməliyyatların həcmini artıracaq, həm də Azərbaycanın regional trans-sərhəd ötürücüsü kimi logistik imkanlarını genişləndirəcək.

**Ümumdünya Gömrük Təşkilatının hədəflərinə uyğun**

Konsepsiya həm də Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Azərbaycan qarşısında irəli sürdüyü tövsiyələrin icrası istiqamətində mükəmməl gömrük və ticarət idarəetməsinin yaradılmasını təmin edəcək. Belə ki, mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsinə və beynəlxalq standartlara uyğun yeni normativ hüquqi aktların hazırlanmasına münbit şərait yaradacaq. ÜGT-nin müəyyən etdiyi strateji hədəflərə və standartlara uyğun biznes yönümlü islahatların həyata keçirilməsi, normativ hüquqi aktların dünya ticarət sistemində tətbiq edilən təcrübəyə uyğunlaşdırılması, nəticə olaraq yerli şirkətlərin və bütövlükdə ölkə iqtisadiyyatının inkişafına yeni imkanlar açacaq. Büdcə vəsaitinin formalaşması sahəsində fiskal intizamın təmin edilməsinə, vəsaitin düzgün bölüşdürülməsinə və xərclərin səmərəliliyinin artırılmasına zəmin yaranacaq, gömrük ödənişlərindən yayınma riskləri üzrə çevik qiymətləndirmə aparılacaq.

Beləliklə, "Etibarlı Tərəfdaş Konsepsiyası"nın tətbiqi Azərbaycanda ən qabaqcıl gömrük modelinin qurulmasını təmin edəcək və yeni modelin tətbiqi ölkəmizin iqtisadi inkişafında və qlobal rəqabət mühitində üstünlüklər əldə etməsində mühüm rol oynacaq.

***ELBRUS CƏFƏRLİ***

# Baş nazir Milli Məclisə gəldi...

Dekabrın 9-da Milli Məclisin növbəti iclası keçirilib. İclasda Azərbaycanın Baş naziri Əli Əsədov və hökumət üzvləri iştirak ediblər. Spiker Sahibə Qafarova iclasın gündəliyi haqqında məlumat verib. Gündəliyə 16 məsələ daxil edilib.

**2026-cı ilin büdcə zərfinə daxil olan məsələlər üçüncü oxunuşda qəbul edilib**

## Büdcə layihəsində bir sıra düzəlişlər edilib

Əvvəlcə 2026-cı ilin büdcə zərfinə daxil olan məsələlər üçüncü oxunuşda müzakirə olunub. Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "2026-cı ilin dövlət büdcəsi haqqında" (üçüncü oxunuş) qanun layihəsi barədə məlumat verib. Onun sözlərinə görə, qanun layihəsinə bir sıra düzəlişlər edilib: "Müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq xərclərinin 47,8 milyon manat artırılması təklif olunur. Bundan başqa, ərzaq və qida təhlükəsizliyi çərçivəsində heyvanlar arasında yoluxucu xəstəliklərə və epizootiya əleyhinə peyvəndləmə işləri üçün əlavə 3 milyon manat vəsaitin yönəldilməsi nəzərdə tutulur. Bəzi dövlət orqanlarının fəaliyyətinin təşkili və onların maddi-texniki təminatının daha da yaxşılaşdırılması ilə bağlı 1,2 milyon manat vəsaitə ehtiyac yaranıb. Sadaladığımız və cəmi 52 milyon manat təşkil edən bu xərclər büdcənin müvafiq ehtiyatları hesabına təmin olunacaq".

Bundan başqa, komitə sədri deyib ki, bəzi təşkilatların təklifləri əsasında onların xərclərinin optimallaşdırılması ilə bağlı iqtisadi təsnifata uyğun olaraq 13,2 milyon manat məbləğində maddələrarası yerdəyişmələrin aparılmasına ehtiyac var: "?Həmkarlarımızın qaldırdığı məsələlərin bir qisminin prioritetli prinsip üzrə dövlət investisiya xərcləri hesabına həll ediləcəyi nəzərdə tutulur. Növbəti ildə dövlət investisiya proqramı üçün 2.7 milyard manat vəsait planlaşdırılır. ?Təklif olunan dəyişikliklər 2026-cı il dövlət büdcəsi haqqında yeniləşmiş qanun layihəsinin birinci, yeddinci və doqquzuncu maddələrində öz əksini tapıb".






## Baş nazir: Ərazilərin bərpasına 25 milyard manatdan çox vəsait ayrılıb

Sonra iclasda Baş nazir Əli Əsədov çıxış edib. Baş nazir bildirib ki, 2026-cı ilin dövlət büdcəsində investisiyayönümlü dövlət proqramlarının maliyyə təminatı üçün kifayət həcmdə vəsait nəzərdə tutulur.Onun sözlərinə görə, hazırda Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən biridir. Ölkəmiz beynəlxalq nəqliyyat dəhlizlərini fəal şəkildə inkişaf etdirir, müasir infrastruktur yaradır. Ən yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhliz, həm də Şimal-Cənub Dəhlizi çərçivəsində yeni nəqliyyat marşrutu kimi mühüm əhəmiyyət kəsb edəcək.

Ə.Əsədov əlavə edib ki, bu gün yeni sahələr arasında əsas yerdə bərpaolunan enerji növlərinin yaradılması dayanır. Bu istiqamətdə icra edilən layihələr böyük həcmdə beynəlxalq sərmayələr cəlb edir. Bu, sənayenin inkişafının növbəti istiqamətidir. Bu gün Azərbaycan bir sıra Mərkəzi Asiya ölkələri ilə birgə sərmayə fondları yaradıb, bir sıra dost ölkələrə Dövlət Neft Fondu və SOCAR vasitəsilə investisiya yatırıb. Bu fondlar vasitəsilə bir çox layihələr icra ediləcək, ölkəmiz dividendlər qazanacaq və iqtisadiyyatımız üçün əlavə dəyər yaranacaq. Beləliklə, sadalanan istiqamətlər yeni inkişaf modelini və yeni artım drayverlərini yaradan strateji layihələrdir.

"Bütövlükdə, Prezidentin son 20 ildə uzaqgörən və düşünülmüş siyasəti Azərbaycana mühüm siyasi-iqtisadi uğurlar qazandırıb ki, bu uğurların məntiqi zirvəsi hazırda yaşadığımız şanlı Zəfər tarixidir. Prezidentin bugünkü çoxşaxəli siyasəti və ondan irəli gələrək hökumət qarşısında qoyacağı hədəflər isə qarşıdakı illərdə milli iqtisadiyyatımızın dinamik inkişafını təmin edəcək", - deyə Ə.Əsədov vurğulayıb. O deyib ki, bu gün əsas investisiya layihələrinin istiqaməti Qarabağ və Şərqi Zəngəzurdur. Prezidentin birbaşa iştirakı və rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarda sürətli bərpa-quruculuq işləri görülür. "Ümumilikdə, 2020-ci ildən bəri 2026-cı il də daxil olmaqla işğaldan azad olunmuş ərazilərin bərpasına büdcədən 25 milyard manatdan çox vəsait ayrılıb (2026-cı il - 3,5 milyard manat). Bu vəsaitlərin böyük hissəsi infrastruktur layihələrinə yönəldilib. Layihələrin iqtisadiyyatımız üçün yaradacağı əlavə dəyər orta və uzunmüddətli dövrdə gözlənilir. Növbəti ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri ümumi büdcə xərclərinin təqribən 21 faizini (8,7 milyard manat) təşkil edir. Bu gün Azərbaycanda hərbi sənaye sürətlə inkişaf edir. Artıq bir çox ölkələrə hərbi təyinatlı məhsul ixrac edirik. Prezident tərəfindən hökumət qarşısında vəzifə qoyulub ki, həm daxili tələbatı ödəmək, həm də ixrac etmək üçün sənaye klasteri yaradılsın. Bu istiqamətdə artıq müvafiq işlər aparılır", - deyə Ə.Əsədov vurğulayıb.

## Strateji valyuta ehtiyatlarımız 83,5 milyard dollara çatıb

Baş nazir qeyd edib ki, 2026-2029-cu illəri əhatə edən növbəti ortamüddətli dövr hazırkı inkişaf meyilləri baxımından ölkə qarşısında yeni strateji çağırışlar və hədəflər formalaşdırır. Onun fikrincə, cari ilin ötən dövrü ərzində ölkə Prezidentinin həyata keçirdiyi xarici səfərlər və yüksəksəviyyəli görüşlər ölkəmizin iqtisadi gündəliyinə yeni dinamika gətirib. Bu il avqustun 8-də Prezident İlham Əliyevin ABŞ-a tarixi səfəri çərçivəsində imzalanan sənədlər, o cümlədən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz nəqliyyat bağlantısı üzrə razılaşmanın əldə olunması regionda davamlı sülhün, beynəlxalq yükdaşımalar üçün tranzit imkanlarının və iqtisadi inkişafın təmin olunmasına xidmət edəcək. Bu dövrdə əldə olunmuş nailiyyətlər iqtisadi sabitliyin və dayanıqlılığın qorunmasına, yeni investisiyaların cəlbinə, ölkəmizin beynəlxalq sahədə rolunun və mövqeyinin daha da möhkəmlənməsinə imkan verir.

Ə.Əsədov diqqətə çatdırıb ki, Dünya İqtisadi Forumunun 2025-ci il üzrə "Qlobal Risk Hesabatı"nda sadalanan qlobal risklərə baxmayaraq, cari ilin 11 ayında makroiqtisadi göstəricilərimiz dayanıqlıdır. Güclü xarici balans, aşağı dövlət borcu və suveren fondun böyük aktivləri əsas müsbət göstəricilər kimi qeyd olunmalıdır. Baş nazir bildirib ki, cari ilin 11 ayında ümumi daxili məhsul 1,6 faiz artıb, o cümlədən qeyri-neft-qaz sektorunda 3,2 faiz artım, neft-qaz sektorunda isə 1,8 faiz azalma qeydə alınıb. İqtisadi artımın dinamikasında nisbətən zəifləmənin əsası neft hasilatının obyektiv səbəblərə görə aşağı düşməsidir.

Ə.Əsədov əlavə edib ki, ölkəmizin strateji valyuta ehtiyatları ildən-ilə artır və bu ilin əvvəlindən də əhəmiyyətli dərəcədə - 12,5 milyard dollar artaraq 83,5 milyard dollardır. Bu da manat ifadəsi ilə 142 milyard manatdır ki, 2025-ci ilə gözlənilən ÜDM-in həcmini üstələyir. Hazırda valyuta ehtiyatlarımız xarici borcumuzdan 17 dəfə çoxdur. "Bu gün dünyanın iki aparıcı reytinq agentliyi ("Moody's" və "Fitch") ölkəmizin kredit reytinqini yüksəldib. Bu, ölkəmizdə iqtisadi dayanıqlığın, fiskal intizamın və əlverişli investisiya mühitinin səviyyəsini təsdiq edir", - deyə o vurğulayıb.

Vurğulanıb ki, 2026-cı ildə icmal büdcənin gəlirləri təqribən 45 milyard manat, xərcləri isə 48,8 milyard manat proqnoz olunur. İcmal büdcənin kəsirinin ÜDM-ə nisbəti 2,9 faizdir. Baş nazir deyib ki, makroiqtisadi proqnozlara əsasən, 2026-cı ildə qeyri-neft sektoru üzrə ÜDM-in 5 faizlik real artım tempi proqnozlaşdırılır. Neft-qaz hasilatı istisna olmaqla, ölkə iqtisadiyyatının bütün sahələri artımla proqnoz olunur. "Ortamüddətli dövrdə iqtisadiyyatımızın aparıcı qüvvəsi qeyri-neft sektoru olacaq. Əgər Strategiyanın başlanğıc dövründə - 2022-ci ildə ÜDM-nin həcminin 52 faizini qeyri-neft sektoru təşkil edirdisə (2025- 72 faiz), bu nisbət 2029-cu ildə 80 faizi üstələyəcək", - deyə o əlavə edib.

Qeyd edək ki, millət vəkilləri 2026-cı ilin büdcə zərfinə daxil olan məsələləri qəbul ediblər.

Daha sonra gündəlikdə olan digər qanun layihələri müzakirə olunub.

***Nardar BAYRAMLI***

# Heydər Əliyev zirvəsi






Dekabrın 9-da Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının və partiyanın Nərimanov rayon təşkilatının birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Heydər Əliyev zirvəsi" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb.

"Bakı KOB Evi"ndə keçirilən tədbirdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbiri giriş sözü ilə açan YAP Nərimanov rayon təşkilatının sədri Elçin Quliyev Ulu Öndər Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edib. O qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi Ümummilli Lider Heydər Əliyevdir: "Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müdrik siyasət nəticəsində Azərbaycan qüdrətli və qalib ölkəyə çevrilib. Əldə olunan uğurların zirvəsində işğal altındakı torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüz və suverenliyimizin bərpası dayanır".

Tədbirin moderatoru, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsinin müdiri Zəkiyyə Musayeva ölkəmizin inkişafında Ulu Öndər Heydər Əliyevin misilsiz rolundan danışıb. Z.Musayeva bildirib ki, Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin memarı kimi adını tariximizə əbədi həkk etdirib: "Bu gün məhz Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edir, yeni zirvələr fəth edir. Uzun illər həm iqtisadi, siyasi, hərbi, həm də diplomatik sahədə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan Vətən müharibəsində şanlı Qələbə qazandı, lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyi tam bərpa olundu".

Çıxış edən Azərbaycan Respublikası Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev xalqımızın tarixində silinməz iz qoymuş, müasir Azərbaycan dövlətinin memarı və qurucusu, dünya siyasətində öz müdrikliyi, uzaqgörənliyi və qətiyyəti ilə seçilən dahi şəxsiyyətdir. O.Məmmədov diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyevin ən böyük tarixi xidmətlərindən biri də Azərbaycan iqtisadiyyatının yeni fəlsəfi əsaslarla qurmasıdır: "Ümummilli Lider Heydər Əliyevin iqtisadi strategiyasında sahibkar və sahibkarlıq fəaliyyəti xüsusi rol oynayırdı. Ulu Öndər sahibkarlığı milli iqtisadi gücün əsas dayağı kimi qiymətləndirirdi. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə ilk dəfə sahibkarlığın hüquqi bazası formalaşdı, özəl mülkiyyətin toxunulmazlığı, azad rəqabət, əlverişli investisiya mühiti, KOB-ların dəstəklənməsi kimi prinsiplər dövlət siyasətinin ayrılmaz hissəsinə çevrildi".

O.Məmmədov qeyd edib ki, bu gün Azərbaycanda sahibkarlığın inkişafı üçün yaradılan bütün mexanizmlər - investisiyaların təşviqi, güzəştli kredit mexanizmi, rəqəmsal xidmətlər və yeni iqtisadi yanaşmalar əsasında biznes mühitinin yaxşılaşdırılması məhz Ulu Öndərin əsasını qoyduğu təməl üzərində Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir".

YAP Veteranlar Şurasının üzvü, tarix elmləri doktoru Dilarə Seyidzadə isə mövzu ilə bağlı məruzəçi qismində çıxış edib. O, Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısında misilsiz xidmətlər göstərdiyini deyib: "Azərbaycan xalqı çox xoşbəxtdir ki, Heydər Əliyev kimi dahi Lideri olub. Biz müstəqil ölkənin vətəndaşı olaraq çox çətin yollardan keçmişik. Bu müstəqilliyin qorunması və möhkəmlənməsi Ümummilli Liderin xidmətləri sayəsində mümkün olub. Heydər Əliyev ölkəmizin müstəqilliyini qorumaqla yanaşı, inkişafı naminə çox mühüm işlər görüb. Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı həm yaradan, həm möhkəmləndirən, dünyada tanıdan, həm də gələcəyə doğru uğurla aparan şəxsiyyət idi. O, özündə bütün keyfiyyətləri birləşdirmişdi".

Dilarə Seyidzadə qeyd edib ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev çətin anlarda xalqına dayaq oldu. O bütün ömrünü Azərbaycana, Azərbaycan xalqına həsr edib. Heydər Əliyev bildirirdi ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun qorunması, daimi, əbədi olması bundan da çətindir. Ulu Öndərin torpaq, Vətən sevgisi böyük idi. "Mən "Dəmir yumruq" əməliyyatı ilə torpaqlarımızın işğaldan azad olunmasını xüsusi vurğulamaq istəyirəm. O yumruqda xalqımızın birliyini görürəm. Bu, milli birlikdir, Heydər Əliyevin arzusunun reallıqda təsdiqidir. 44 gündə Azərbaycan bütün dünyaya göstərdi ki, qalib ölkədir. Bu, Heydər Əliyev siyasətinin bəhrəsidir. O, xalqını, dövlətini elə böyük məhəbbətlə sevirdi ki, Azərbaycana İlham Əliyev kimi dövlətini, xalqını sevən Lideri bəxş etdi. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa və quruculuq işlərinin miqyasına diqqət yetirin. Prezident İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirir. Azərbaycan bütün sahələrdə inkişaf edir. Ərazi bütövlüyümüzün təmin olunması, işğala son qoyularaq azad edilmiş torpaqlarımızın cənnətə çevrilməsi üçün görülən işlər Heydər Əliyev siyasətinin təntənəsidir", - deyə YAP Veteranlar Şurasının üzvü vurğulayıb.

Tədbir interaktiv formada davam edib, iştirakçıların sualları cavablandırılıb.

Sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Süni intellekt - gündəlik həyatın mühüm bir hissəsi

## Heydər Əliyev Mərkəzində "İslam dünyasında süni intellekt indeksinin təqdimatı" beynəlxalq konfransı keçirilib

Bu günlərdə Heydər Əliyev Mərkəzində "İslam dünyasında süni intellekt indeksinin təqdimatı" beynəlxalq konfransının açılışı baş tutub.

Heydər Əliyev Fondunun, Elm və Təhsil Nazirliyinin təşkilatçılığı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilən konfransın məqsədi İslam dünyasında süni intellekt üzrə əməkdaşlığı gücləndirmək, həmçinin süni intellektin etik, sosial və iqtisadi təsirlərini müzakirə etməkdir.

Qeyd edək ki, süni intellektin inkişaf trendlərinin elmi əsaslarla ölçülməsi üçün hazırlanmış "İslam dünyasında süni intellekt indeksi" sənədi də məhz ilk dəfə Bakı konfransında təqdim olunub.





### Heydər Əliyev Fondunun fəaliyyətinin əsas istiqaməti - təhsil

Konfransın açılışında çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva bildirib ki, süni intellekt (AI) artıq gündəlik həyatın mühüm bir hissəsinə çevrilib. Onun sözlərinə görə, bu sahə böyük imkanlar yaratmaqla yanaşı, yeni suallar və məsuliyyətlər də ortaya çıxarır. Cəmiyyətin süni intellektin təsirini düzgün qiymətləndirməsinin, gənclərin risklərdən qorunaraq bu texnologiyanın imkanlarına yönləndirilməsinin vacibliyi xüsusi qeyd olunub.

Heydər Əliyev Fondunun vitse-prezidenti diqqətə çatdırıb ki, Azərbaycan bu istiqamətdə ardıcıl addımlar atır. 2025-2028-ci illər üçün Milli Süni İntellekt Strategiyası çərçivəsində milli süni intellekt ekosisteminin qurulması, dövlət xidmətləri üçün Azərbaycan dilində AI modelinin hazırlanması, dövlət qurumları üçün standartların müəyyənləşdirilməsi və Süni İntellekt Akademiyasının yaradılması nəzərdə tutulur.

L.Əliyeva Heydər Əliyev Fondunun artıq 20 ildir təhsili fəaliyyətinin əsas istiqaməti kimi müəyyən etdiyini xatırladıb. Deyib ki, Fond bu müddət ərzində Azərbaycanda 500-dən çox məktəb binası inşa edib və yenidən qurub, uşaq bağçalarını və internat müəssisələrini modernləşdirib, minlərlə uşağı müasir tədris vasitələri ilə təmin edib.

O diqqətə çatdırıb ki, süni intellekt dövrünə keçid bu missiyanın əhəmiyyətini daha da artırır. Onun fikrincə, süni intellekt, sadəcə, texnologiya deyil, hər bir uşaq üçün yeni imkan deməkdir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, həmçinin vurğulayıb ki, süni intellekt ətraf mühitin qorunmasında da mühüm rol oynaya bilər. Nadir heyvan növlərinin izlənməsi, iqlim dəyişikliklərinə nəzarət, meşələrin mühafizəsi, su ehtiyatlarının qorunması və dayanıqlı kənd təsərrüfatının inkişafı bu imkanlar sırasındadır.

Leyla Əliyeva çıxışında ICESCO ilə əməkdaşlığa da toxunub. Bu tərəfdaşlıq çərçivəsində Burkina-Fasoda məcburi köçkün qızlar üçün məktəblərin inşası, eləcə də Mali, Çad və Komor adalarında layihələrin davam etdirildiyi diqqətə çatdırılıb. Vurğulanıb ki, BMT-nin İnkişaf Proqramı ilə birgə gənclər və əlilliyi olan şəxslər üçün regional informasiya və kommunikasiya texnologiyaları mərkəzlərinin yaradılması bu istiqamətdə həyata keçirilən mühüm işlərdəndir.

Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev çıxışında bildirib ki, Heydər Əliyev Fondu uzun illərdir təhsil sahəsində mükəmməlliyi təşviq edir, innovativ təşəbbüsləri dəstəkləyir, uşaqlar və gənclər üçün geniş imkanlar yaradır.

ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malik çıxışında qeyd edib ki, bəşəriyyət yeni bir mərhələnin - süni intellekt dövrünün astanasındadır. Bu, bacarıqları və təsiri formalaşdıran qüvvədir. O bildirib ki, süni intellekt artıq strateji hədəfə çevrilib: onu qəbul edənlər inkişafı sürətləndirir, ona qarşı çıxanlar isə tərəqqinin başqa istiqamətlərdə getdiyini görür və geridə qalacaqlar.

### "Həmdan-ICESCO" mükafatının təltif edilmə mərasimi

Sonra konfrans çərçivəsində ICESCO və Həmdan Bin Rəşid Əl Maktum Fondunun 4-cü birgə "Həmdan-ICESCO" mükafatının təltif edilmə mərasimi keçirilib.

Qeyd edək ki, bu mükafat İslam dünyası ölkələrində tədris müəssisələrinin inkişafına və təhsil mühitinin dəstəklənməsi təşəbbüslərinə töhfələrə görə təqdim edilir. Heydər Əliyev Fondu İslam dünyası və digər ölkələrdə məktəblərin tikinti-bərpasına yönələn təhsil və sosial dəstək üzrə layihələrinə görə bu mükafatla təltif olunub.

Mükafat, eyni zamanda, Yəmənin Hadramaut Təhsil İnkişaf Fondu və Mərakeşin Birinci Səviyyə Təhsil Fonduna təqdim edilib.

Konfrans daha sonra "Təhsildə innovasiya: süni intellektin İslam dünyasında təsiri və imkanları" mövzusunda panel müzakirələrlə davam edib.

### Heydər Əliyev Fondu ilə ICESCO arasında saziş imzalanıb

Bakıda keçirilən "İslam dünyasında süni intellekt indeksinin təqdimatı" beynəlxalq konfransı çərçivəsində Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Maliklə görüşüb.

ICESCO-nun Baş direktoru yenidən Azərbaycanda olmaqdan məmnunluğunu bildirib, süni intellekt indeksinin təqdimatı ilə bağlı beynəlxalq tədbirin Bakıda yüksək səviyyədə təşkilinə görə minnətdarlığını ifadə edib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkəmizə davamlı dəstəyinə və mədəniyyətimizin təşviqinə istiqamətlənən tədbirlərə görə ICESCO-ya minnətdarlığını çatdırıb.

Ölkəmizlə ICESCO arasında mövcud olan uğurlu əməkdaşlığın, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ICESCO ilə səmərəli və sıx əlaqələrinin bu işbirliyinin daha da genişləndirilməsinə xidmət etdiyi vurğulanıb, iki qurum arasında elm, təhsil, mədəniyyət sahələrində gələcək layihələr ətrafında fikir mübadiləsi aparılıb.

Görüşün sonunda Heydər Əliyev Fondu ilə ICESCO arasında Nigerin üç regionunda münaqişədən zərər çəkmiş qadınların imkanlarının genişləndirilməsi və sosial inklüzivlik istiqamətində həyata keçirilən layihə ilə bağlı saziş imzalanıb.

### Əməkdaşlıq müzakirə edilib

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Həmdan Bin Rəşid Əl Maktum Fondunun ali sədri Şeyx Rəşid bin Həmdan bin Rəşid Əl Maktum arasında görüş keçirilib.

Bakıda keçirilən "İslam dünyasında süni intellekt indeksinin təqdimatı" konfransında iştirakdan məmnunluğunu bildirən Şeyx Rəşid bin Həmdan bin Rəşid Əl Maktum süni intellekt üzrə tədbirlərin, bu sahədə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini vurğulayıb, təhsil və sosial sahədə icra edilən proqram və layihələrin önəmindən danışıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva hər iki qurum arasında əməkdaşlıq perspektivlərinin vacibliyini diqqətə çatdırıb.

*Mübariz ABDULLAYEV*

# Gömrük-biznes əməkdaşlığı yeni mərhələdə

## "Gömrük-Biznes Forumu 2025: Dialoq və Etimad" tədbiri işgüzar platformanın formalaşdırılmasında mühüm rol oynayacaq

Dekabrın 8-də Dövlət Gömrük Komitəsinin inzibati binasında bp şirkətinin dəstəyi ilə "Gömrük-Biznes Forumu 2025: Dialoq və Etimad" mövzusunda tədbir keçirilib. Forumun məqsədi gömrük-biznes əməkdaşlığının gücləndirilməsi, cari il ərzində həyata keçirilən və gələcəkdə reallaşdırılması nəzərdə tutulan layihələrin özəl sektorun və digər maraqlı tərəflərin nümayəndələri ilə birgə müzakirəsinə imkan yaradacaq işgüzar platformanın formalaşdırılmasıdır. Tədbirdə dövlət və özəl sektorun nümayəndələri, gömrük işinin təşkili sahəsində ixtisaslaşan elm adamları, ekspertlər və media təmsilçiləri iştirak ediblər.

Forumda çıxış edən Prezidentin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov ölkəmizin iqtisadi inkişafında və qeyri-neft fiskal yığımlarında gömrük orqanlarının üzərinə düşən vəzifələrdən bəhs edib. Qeyd edib ki, Azərbaycan iqtisadiyyatının qarşısında duran əsas məqsəd onun şaxələndirilməsidir. Son 20 ildə bu istiqamətdə həyata keçirilən islahatlar şəffaflığı təmin edib, əlverişli biznes mühitinin yaranmasına səbəb olub, qeyri-neft sektorunun payı yüksələn xətlə inkişaf edərək 81,4 faizə çatıb. Qeyri-neft sektorunun 2 dəfə artması ölkədə biznes mühitinin səmərəli şəkildə formalaşdığını deməyə əsas verir və bu sahədə gömrük inzibatçılığının təkmiləşdirilməsi də mühüm amillərdən biridir. Ötən illərdə bu istiqamətdə əhəmiyyətli addımlar atılıb, "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin fəaliyyətinin təkmilləşməsi gömrükdə rəqəmsal sistemin tətbiqini təmin edib.

### Azərbaycan 10 ölkə ilə ticarət sazişi imzalayıb

Hazırda gömrük sistemində təkmilləşdirmənin yeni rəqəmsal mərhələsi başlayıb. Aparılan islahatlar ticarət prosedurlarının optimallaşdırılması və sərhədkeçid sisteminin modernləşdirilməsini nəzərdə tutur ki, nəticədə Azərbaycanda gömrük siyasətinin strateji baxışı bir neçə əsas istiqamətdə formalaşacaq və daha səmərəli fəaliyyət göstərəcək. Azərbaycanın xarici ticarət əlaqələrinin genişləndiyinə diqqət çəkən Ş.Mövsümov bildirib ki, hazırda Azərbaycan 10 ölkə ilə ticarət sazişi imzalayıb. Həmin sazişlər beynəlxalq ticarətin daha da genişlənməsinə imkan verir. Rəqəmsal həllərin tətbiqi isə ölkəmizin qlobal ticarət zəncirinə daha çevik inteqrasiyasını təmin edəcək. Eyni zamanda, qeyri-qanuni dövriyyə ilə mübarizə, subyektivlik risklərinin azaldılması və biznes mühitində bərabər rəqabət şəraitlərinin təmin olunması prioritetlər sırasındadır. İnsan kapitalının inkişafı, data əsaslı qərar qəbul etmə, "yaşıl gömrük" təşəbbüsləri və rəqəmsal transformasiya müasir idarəetmənin əsas elementləri olaraq qalacaq. Yeni yanaşma sayəsində Azərbaycanın gömrük-logistika sistemini yüksək etimada malik və sahibkaryönümlü institusional modelə çevirəcək.

### Gömrük yoxlamalarının sayı 22 faiz azalıb

Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov bildirib ki, gömrük xidmətində davamlı çevik alətlərin tətbiqinin genişləndirilməsi, gömrük inzibatçılığının səmərəliliyinin artırılması üzrə həyata keçirilən fəaliyyətin mərkəzində məhz rəqabət mühitinin möhkəmlənməsi, xidmət keyfiyyətinin daha da yüksəldilməsi dayanır. Bu baxımdan sahibkarlıq subyektlərinin fikir və təklifləri birgə anlaşma və fəaliyyət üçün olduqca əhəmiyyət kəsb edir. Forum çərçivəsində aparılacaq müzakirələr Azərbaycanın ixrac potensialının artırılmasına, logistika və ticarət əməliyyatlarının sürətləndirilməsinə, yeni mexanizmlərin müəyyənləşdirilməsinə töhfə verəcək.

Ş.Bağırov qeyd edib ki, gömrük sistemində Avtomatlaşdırılmış Risk Analizi Sisteminin (ARAS) tətbiqi nəticəsində sərhədkeçmə müddətinin 25 faiz azaldılmasına nail olunub. Gömrük rəsmiləşdirmə müddəti isə 35 faiz, fiziki yoxlamaların sayı 22 faiz azaldılıb. 2024-cü il ərzində malların gömrük dəyərində bəyannamələr vasitəsilə dəqiqləşmiş 377 milyon manat məbləği üzrə 170 milyon 366 manat vəsaitin büdcənin gəlirləri hesabına cəlb edilməsi təmin edilib. Ümumilikdə, ötən il büdcəyə 2 milyard 305 milyon manat və ya 53 faiz artıq olmaqla 6 milyard 648 milyon manat vəsait köçürülüb. Gömrük rüsumları və vergiləri 2024-cü il dövlət büdcəsinin qeyri-neft gəlirlərinin 35 faizini, qeyri-neft-qaz sektoru üzrə ümumi daxili məhsulun isə 8 faizini təşkil edib.



### Gömrük orqanları avtoburaxılış sisteminə keçmək niyyətindədir

Gömrük Komitəsinin sədr müavini Natiq Şirinov isə bildirib ki, Azərbaycan gömrüyü avtoburaxılış sisteminə keçmək niyyətindədir. Sahibkarlıq subyektlərinin bəyannamələrinə müəyyən limit çərçivəsi qoyulmaqla avtoburaxılış sisteminə keçməyi nəzərdə tutulur. Yeni rəqəmsal alətlər gələcəkdə artıq etibarlı tərəfdaş olan sahibkarlıq subyektlərinin bəyannamələrini müəyyən limit çərçivəsi qoymaqla avtoburaxılış sisteminə keçirməyə imkan verəcək. Eyni zamanda, gömrük orqanları Avtomatlaşdırılmış Risk Analizi Sisteminin (ARAS) yeni versiyasının tətbiqinə başlayıb. Gömrük orqanları qabaqcıl texniki nəzarət vasitələrinin tətbiqini də genişləndirir ki, bu da tranzitin həcminə təsir edir. Bunun nəticəsidir ki, Orta Dəhliz boyunca tranzit yüklərində artım müşahidə olunur.

Forumda xarici ticarət əməliyyatlarının tənzimlənməsi və sadələşdirilməsi istiqamətində gömrük və aidiyyəti dövlət orqanlarının birgə həyata keçirdiyi yeniliklərlə bağlı təqdimatlar nümayiş olunub, "Xarici ticarətin təşviqi-gömrük prosedurları", "Tranzit və logistika-gömrük əməliyyatları" mövzularında sahəvi müzakirələr keçirilib.

*E.CƏFƏRLİ*

# "Siyasi elmlər", yoxsa "siyasətşünaslıq"?

*Mübariz FEYİZLİ*

Hazırda dünyada gedən sürətli inteqrasiya fonunda dil problemlərinin aktuallığı heç vaxt olmadığı qədər artıb. Açıq etiraf edək ki, informasiya-kommunikasiya texnologiyalarının, süni intellektin həyatımıza daxil olması ilə dillərin qarşısında yeni imkanlar açılsa da, milli dillər üçün təhdidlər də artıb.

Belə təhdidlər Azərbaycan dili üçün də yox deyil. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışında dilimizin saflığının qorunmasının zəruriliyinə bir daha xüsusi diqqət çəkib. Dövlətimizin başçısının vurğuladığı kimi, bu hər kəsin - dövlətin də, alimin də, siyasətçinin də, sıravi vətəndaşın da işi olmalıdır. Tələblərdən biri də ondan ibarətdir ki, dilimizdəki terminlər düzgün seçilməli, yerində



işlədilməli, lüğət tərkibinin qorunmasına və daha da zənginləşdirilməsinə xüsusi diqqət göstərilməlidir.

Hazırda dilimizdə "siyasi elmlər" və "siyasətşünaslıq" terminləri işlədilir. Bir sıra hallarda sual yaranır: Bəhs olunan terminlər arasında hansı fərqlər mövcuddur? Lüğətdə bu iki terminin qalmasına lüzum varmı və yaxud onlardan hansı düzgündür?

Mövzu ilə bağlı alimlər fərqli fikirlər ifadə ediblər. "Yeni Azərbaycan"a açıqlama verən akademik Nizami Cəfərov dilimizdə yaxın mənalı terminlərin olduğunu bildirib. "Siyasi elmlər" və "siyasətşünaslıq" terminləri də bu qəbildəndir. Alim bildirib ki, bu iki termin arasında məna yaxınlığı olsa da, onların izahı bir-birindən fərqlənir. Onun sözlərinə görə siyasi elmlər dedikdə ayrı-ayrı elm sahələri başa düşülür. Məsələn, siyasi coğrafiya, siyasi tarix, dil siyasəti, torpaq siyasəti, su siyasəti, hərbi siyasət, mədəniyyət siyasəti və s. Bunların hamısı siyasi elmlərə aiddir. Siyasətşünaslıq isə ümumi bir termindir. Belə demək mümkündürsə, bütün siyasi elmlər siyasətşünaslıq termini ilə bir arada cəmləşirlər.

Mövzu ilə bağlı fikirlərini bölüşən Bakı Dövlət Universitetinin professoru, Əməkdar jurnalist Qulu Məhərrəmli dilimizdə hər iki termi-



nin qalmasının zəruriliyinə vurğu edib. Onun sözlərinə görə, "siyasi elmlər" və "siyasətşünaslıq" başqa-başqa anlayışları ifadə edir. "Siyasi elmlər dedikdə daha geniş anlayışların spektri başa düşülür. "Siyasətşünaslıq" termini isə daha konkret məzmuna malikdir və ümumən siyasətlə məşğul olan elmi ifadə edir. Əlbəttə, bu iki termin arasında, necə deyərlər, Çin səddi də yoxdur, onlar bir-birinə yaxın terminlərdir-lər", - deyə Qulu Məhərrəmli bildirib.

Nəsimi adına Dilçilik İnstitutunun terminologiya şöbəsinin elmi işçisi Aytən Heydərova açıqlamasında bildirib ki, siyasi elmlər - dövlət, hakimiyyət, siyasi sistemlər, siyasi proseslər, siyasi institutlar və beynəlxalq münasibətləri öyrənən elmi sahələrin ümumi adıdır. Bu elm cəmiyyətin necə idarə olunduğunu, hakimiyyətin necə formalaşdığını və siyasi qərarların necə qəbul edildiyini araşdırır. Fikirlərinə davam edən Aytən Heydərova vurğulayıb ki, siyasi terminologiya siyasətşünaslıq elminin nəzəri və praktik bazasını təşkil edən əsas kateqoriyalar, anlayışlar və terminlər sistemidir. Bu terminlər cəmiyyətin siyasi həyatını, dövlətin strukturunu, siyasi davranışın məzmununu və beynəlxalq münasibətlərin mexanizmlərini elmi şəkildə təsvir etməyə imkan verir. Siyasi terminlərin dəqiq və ardıcıl işlədilməsi siyasi analiz üçün xüsusi əhəmiyyət daşıyır, çünki hər bir termin siyasi reallığı abstrakt şəkildə ifadə edir, onun mahiyyətini açır və müxtəlif siyasi hadisələr arasında əlaqə yaratmaq imkanı verir.

Siyasətşünaslıq - siyasət elmini öyrənən elmdir. Yəni siyasətin mahiyyətini, siyasi institutları, hakimiyyətin bölünməsini, dövlətin idarə olunmasını və insanlar ilə dövlət arasındakı münasibətləri araşdıran elmdir.

# Yarımçıq...

## Azərbaycan (AXCP) xalqına qarşı Cəbhə Partiyasının Sədri

## Əli Kərimlinin yarımçıqlıq trayektoriyası yalnız Ramiz Mehdiyevin oğlu Teymur Mehdiyevin yarımçıqlığı ilə oxşarlıq təşkil edir

Əli Kərimlinin Azərbaycan cəmiyyətinə yaxşı tanış olan xəyanətkar və dönük obrazını xatırlatmağa ehtiyac olmasa da, onun uşaqlıq və gəncliyindən indiyə qədər izləyən xarakterində və bioqrafiyasında əbədi həkk olunmuş Yarımçıqlıq kompleksini təqdim etməyi fikirləşdik.

Kərimlinin yarımçıqlığını bir neçə fakt-epizod üzərində ifadə etməyə çalışdıq.

**Tələbəlik dövründəki yarımçıqlıq.** Ə.Kərimli deyir ki, mən Birinci Qarabağ müharibəsi başlayanda təhsilimi yarımçıq qoyub cəbhəyə yollandım. Onun Qarabağa gedib vuruşması, səngərdə əlində silah tutması barədə konret fakt və məlumat yoxdur və cəbhədə hansı xarüqadələr yaratması, uğurlu əməliyyatlarda iştirakını etiraf edən cəbhə yoldaşına da rast gəlinmir. Onun cəmiyyət üçün olduqca həssas olan bu mövzuda xaltura etməsi və süni vətənpərvərlik görüntüsü yaratması əslində fərarilikdən heç nə ilə fərlənmir. Bu isə özlüyündə Kərimlinin saxtakarlığını əks etdirməklə bərabər, onun yarımçıqlıq kompleksini acıq - aşkar biruzə verir.

Yeri gəlmişkən, onun bu "qəhrəmanlığı" 1990-cı ilin 20 yanvar hadisələri vaxtı da ifşa olunub, hadisədən bir gün əvvəl "Leytenant Şmit" zavodunda yaradılan Müdafiə Komitəsinin üzvü olan Kərimli şəhərin giriş-çıxışında qurulan barrikadalara nəzarət etməli olsa da, tələbə yoldaşları onun aradan sivişib çıxmaq "fərasətinin" şahidi olublar. Yoldaşları onu 20 yanvar gecəsi yataqxanada da görməyiblər, 2 gündən sonra gizləndiyi yerdən çıxdıqdan sonra tapıblar.

Əli Kərimli nə əsgər kimi əsgər, nə də Vətənin dar günündə oğul kimi oğul ola bilməyib, üstəlik 1991-ci ildə bitirdiyi Bakı Dövlət Universitetində arzuladığı müəllimliyi də yarı yolda itirib. Bir müddət universitetdə hüquq üzrə müəllim işləsə də, bu layiqli peşənin öhdəsindən gələ bilməyərək layiqsiz şəkildə yarımçıq buraxıb. Bir neçə ay "Azadlıq" qəzetinin parlament müxbiri kimi çalışsa da jurnalist kimi özünü doğrulda bilmədiyindən bu peşəni də yarıda buraxmalı olub.

Təsadüfən onun başına şahlıq quşu qonub və 1 may 1993-cü ildə Əbülfəz Elçibəy tərəfindən Azərbaycan Respublikasının Dövlət katibi təyin edilib. 1993-cü il 4 iyun hadisələrindən sonra bu vəzifəni də yarımçıq buraxıb. Ulu öndər Heydər Əliyev onu həyat vərdişinə çevrilmiş yarımçıqlıq sindromundan qurtarmaq üçün tutduğu vəzifədə qalmasını istəmişdi, ancaq bioloji natarazlığı və şüurundakı kəsintilər yarımçıqlığa daha çox sədaqətli olduğunu təsdilədi.

**Sədaqətsizlik.** Böyüyünə, el ağsaqqalına, dövlət rəhbərinə hörmət xalqımızın çoxəsrlik milli adət-ənənələrindən, mənəvi-əxlaqi böyüklüyündən və genetikasından gələn bir tərbiyədir, mədəniyyət nümunəsidir. Xüsusən də cəmiyyətimiz ali təhsilə yiyələnmiş, savadlı insanlardan bu mənəvi keyfiyyətləri daha çox gözləyir. Ancaq sədaqətsizlik və böyüyə qarşı nankorluq, ədəbsizlik və tərbiyəsizlik, eləcə də dönüklük Əli Kərimlinin genetik yarımçıqlığının bir norması kimi diqqəti cəlb edir. Məsələn, öyünərək deyir ki, Heydər Əliyev Milli Məclisə gələndə hamı ayağa dursa da, mən qalxmırdım. O, bunu cəsarətlilik kimi təqdim etməyə çalışsa da, anlamır ki, siyasi əxlaq baxımından bu, cəmiyyət tərəfindən mədəniyyətsizlik və tərbiyəsizlik kimi qarşılanır. Bu, dövlət katibi vəzifəsində cəmi 1,5 ay işləmiş bir şəxsin dövlət tərbiyəsini mənimsəyə bilməməsinin təzahürüdür. Elə çox güman ki, BDU-nun auditoriyasında bu cür nalayiq davranışına görə, onun müəllim kimi çalışmasını məqsəduyğun hesab etməyiblər.



Vaxtilə ağsaqqalı və rəhbəri olmuş, siyasi karyerasında ona heç vaxt ağlına gətirmədiyi yolu açmış Elçibəyə qarşı davranışlarında da ədəbsizliyi aydın şəkildə özünü büruzə verirdi. Dövlət katibi işlədiyi dövrdə Kərimli Elçibəyə qarşı elə bir mənəviyyatsızlıq mühiti formalaşdırmışdı ki, hakimiyyətdəki bəzi şəxslər Prezidentə nifrətəbənzər müraciətlər edir, sanki ələ salmağa çalışırdılar. Rusiyada səfir vəzifəsində çalışan Hikmət Hacızadənin Əbülfəz Elçibəyə yazdığı hesabat xarakterli sənədi katibəsinə diqtə edərkən işlətdiyi qeyri-etik ifadələr olduğu kimi də hesabatda əks olunmuşdu. Elçibəy Kələkidə olduğu zaman "Azadlıq" qəzetində onun müsahibəsini uyğunsuz bir şəkillə ən son səhifədə yerləşdirilməsi də Kərimlinin məqsədli şəkildə eks-Prezidenti ələ salmaq tərbiyəsindən irəli gəlirdi.

**AXCP "Sədri".** Əli Kərimli Partiya Sədri kimi yarımçıq Sədr obrazı ilə tanınır. Onun sayəsində AXCP cəmiyyətin yaddaşında yarımçıq partiya kimi iz buraxıb.

İllər ötdükcə AXCP daxilində baş verən qarşıdurmalar təşkilatın "islahatçılar" və "klassiklər"ə bölünməsinə səbəb olub, 2000-ci ildə Əbülfəz Elçibəyin vəfatından sonra bu proses daha açıq müstəviyə keçməklə, BAXCP, KXCP, Böyük Quruluş Partiyası, Demokratik İslahatlar Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, Azad Demokratlar Birliyi Partiyası, Aydınlar Partiyası, Azadlıq Partiyası və s. təşkilatlara bölünüb. Bir sözlə, Əli Kərimli yarılaraq darmadağın olan partiyasında əqidəsi və tərbiyəsi yerində olmadığından özü kimi yarımçıq və natamam tör-töküntülərini ətrafına cəmləyib.

**Yarımçıq hüquqşünas.** Kərimli ixtisasca hüquqşünas olsa da, onun bu şərəfli peşədə də adına şərəf gətirə biləcək heç bir uğuru olmayıb. Əksinə o, əsas qayəsi haqq-ədalət olan hüquq sisteminə də xəyanət edərək dəqiqlik, əsaslı sübut və dəlilllərə əsaslanan hüquqçuluğun prinsiplərinə qarşı çıxıb. Fakt və sübutları, rəsmi məlumatları təkzib etmək ali hüquq normalarını danmaqla bərabər, saxtakarlıq deməkdir. Kərimlinin bu saxtakarlığına da diqqət edək. 2020-ci ilin iyulunda baş vermiş Tovuz hadisələri zamanı meyitlərini döyüş əməliyyatları gedən ərazilərdə qoyub qaçan və yüzlərlə yaralısını köməksiz buraxan Ermənistan Ordusunun çarəsiz durumunu Ermənistan Müdafiə Nazirliyi öz məlumatlarında təsdiqləsə də, Kərimli bunlara inanmadığını, Azərbaycan Müdafiə Nazirliyinin ermənilərin itkiləri barədə açıqladığı rəqəmləri şişirtmə adlandırırdı. Həmin hadisələr zamanı digər açıqlamasında "Biz bir qarış torpaq almadan şəhid vermişik" deməklə neçə-neçə şəhidimizə həqarət edir, general Polad Həşimovun ruhuna qarşı xəyanətkarlığını göstərirdi. Eləcə də Naxçıvanda Cünnüt əməliyyatını Azərbaycan Ordusunun uğurlu əməliyyatı kimi dəyərləndirə bilmədiyindən iddia edirdi ki, ordumuz boş və nəzarətsiz torpaqları tutub. Bu, öz Milli Ordusuna qarşı çıxmaq, milli xəyanət və Ermənistan Müdafiə Nazirliyinin təşviqatına növbəti dəstək idi.

44 günlük Vətən müharibəsi zamanı Sevinc Osmanqızının yayımına çıxan Əli Kərimli Azərbaycan Müdafiə Nazirliyini "təkzib" edərək yenə də erməni propaqandasının tez-tez xatırlatdığı fikrə istinadən "Azərbaycan Ordusunun şəhid sayı 4 mindən daha çoxdur" deməklə bir daha öz dövlətindən və ordusundan çox erməni mənbələrinə inandığını təsdiqləyir.

Ə.Kərimli utanmadan Türkiyə və Pakistan Silahlı Qüvvələrinin komando birliklərinə məxsus şəklin montaj olunmuş formasını Azərbaycan Ordusuna, Azərbaycan əsgərinə aid olan şəkil kimi təqdim edərək insanları qıcıqlandırmaq kimi ucuz vasitəyə əl atırdı.

Bir vaxtlar "Rusiya sülhməramlıları Azərbaycandan çıxmayacaq"və "Azərbaycan dövləti separatçıları öz ərazisindən çıxarmaq gücündə deyil" kimi iddiaları irəli sürən Əli Kərimli fakt qarşısında qaldıqdan - yəni həm separatizm aradan qaldırıldıqdan, həm də sülhməramlıların çıxarılması barədə qərar qəbul və icra edildikdən sonra dövlətin və iqtidarın ünvanına "özlərini elə aparırlar ki, guya böyük bir iş görüblər" deyirdi. Azərbaycan hakimiyyətinin uğurlu siyasəti - hərbi-strateji və diplomatik kursu sayəsində ərazi bütövlüyü və dövlət suverenliyinin tam bərpa olunması Əli Kərimlinin öz natamamlıq sindromundan irəli gələn "yarımçıq proqnoz"larını da alt-üst etdi.

Vaxtilə Azərbaycan əsgərini aşağılamaqdan çəkinməyən, "Azərbaycan ordusu Qarabağı almaq gücündə deyil" kimi sifarişli "şüarlar" səsləndirən, müharibə dövründə isə bir şəhidin dəfnində belə iştirak etməyən, bir qazi ilə görüşməyən Əli Kərimli ancaq Rusiya mövzusundan ağızdolusu danışırdı.

Azərbaycan dövləti öz torpaqlarını işağldan azad etdikdən və ərazi bütövlüyünü təmin etdikdən sonra Ali Baş Komandan İlham Əliyevin qalib Sərkərdəliyinə qıcqanclıqla yanaşan və o vaxt hələ Xankəndi alınmadığına görə, Prezidenti yarımçıq təbrik edən Kərimli özünün yarımçıqlığını burada da göstərirdi.

Vaxtilə "Rusiya ilə Azərbaycan arasında dövlət sərhədi olmamalıdır" deyən yarımçıq təxəyyülün sahibi ötənilki müsahibələrindən birində "Rusiyanın Cənubi Qafqazda mövcudluğu vacibdir", yaxud "Rusiya regionda öz mövqeyini bərpa etmək üçün heç şübhəsiz ki, Cənubi Qafqazda üzləşdiyi bu uğursuzluqla barışmayacaq və bölgə dövlətləri üzərində öz nəzarətini bərpa etmək üçün təzyiq göstərməyin yeni yollarını axtaracaq" fikirləri ilə Kremlə yarınırdı.

Almaniyanın "Frankfurter Rundschau" qəzetinə müsahibədə Əli Kərimli jurnalistin "Yekaterinburqda (Rusiya) baş verən kütləvi və amansız həbslər zamanı iki azərbaycanlının öldürülməsindən sonra İlham Əliyev Vladimir Putinlə qarşıdurma yolunu seçdi. Siz bu məsələdə Əliyevi dəstəkləyirsinizmi" sualına cavabında Kərimli "Əliyev rejiminin dəstək verəcəyim heç bir yanı yoxdur" deməklə əslində hansı səmtdə olduğunu təsdiqləyirdi.

Bu, onun üçün vəzifə, hakimiyyət naminə istənilən qüvvə ilə əməkdaşlıq etmək ümummilli dəyərlərdən, dövlət maraqlarından daha üstün olduğunu göstərir. Ancaq Kərimlinin Moskvaya bu cür bağlılığı da yarımçıq olduğundan Kreml onu yarı yolda buraxdı.

Tarixin ironiyasıdır ki, yarımçıqlıq kompleksi Əli Kərimli haqqında məhkəmənin verdiyi həbs-qəti imkan tədbiri barədə qərarında da özünü göstərib, adətən məhkəmələr 2 və ya 3 aylıq həbs-imkan tədbiri seçir. Kərimli barəsində bu qərarın müddətinin 2,5 ay olması da yarımçıqlıq xronologiyasının daha bir epizodudur.

Yeri gəlmişkən, Əli Kərimlinin yarımçıqlıq trayektoriyası yalnız Ramiz Mehdiyevin oğlu Teymur Mehdiyevin yarımçıqlığı ilə oxşarlıq təşkil edir. T. Mehdiyev də Əli Kərimli kimi müxtəlif sahə və strukturlarda sona qədər işləyə bilməyib və hər bir sahədən yarımçıq ayrılmaqla dövlətin mühüm vəzifələrində natamamlıq kompleksi yaradıb.

**"Yeni Azərbaycan"**

# Macarıstan-Türkiyə əlaqələrində mühüm mərhələ

## Orbanın İstanbula səfəri zamanı 16 saziş imzalanıb

Macarıstanın Baş naziri Viktor Orban Türkiyədə işgüzar səfərdə olub. O, dekabrın 7-də səkkiz nazir ilə birlikdə İstanbula səfər edib və burada macarıstanlı nümayəndə heyəti böyük diqqətlə qarşılanıb. Xüsusi olaraq seçilmiş məkan - Dolmabahçe sarayı, yüksək səviyyəli ikitərəfli danışıqlar və fərdi hədiyyələr Ankaranın Macarıstana xüsusi hörmət göstərdiyini nümayiş etdirib.

Macarıstanın Baş naziri dekabrın 8-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla sülh, miqrasiya və enerji məsələlərini müzakirə edib. Səfər zamanı liderlərin iştirakı ilə ölkə arasında yüksəksəviyyəli Strateji Əməkdaşlıq Şurasının 7-ci iclası keçirilib. Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Macarıstanın Baş naziri Viktor Orban birgə mətbuat konfransı keçiriblər. Tərəflər bəyan ediblər ki, yüksəksəviyyəli Strateji Əməkdaşlıq Şurasının 7-ci iclası çərçivəsində iki ölkə arasında müxtəlif sahələr üzrə 16 əməkdaşlıq sazişi imzalanıb. Liderlər münasibətlərin daha da inkişaf etdirilməsinə sadiqliklərini təsdiqləyib və ikitərəfli və qlobal məsələlərin həlli üçün birgə planlaşdırma mexanizminin işə salınmasını müzakirə ediblər.

### Ərdoğan: Müdafiə sənayesində birgə layihələr həyata keçiriləcək

Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, Türkiyə və Macarıstanın ticarət dövriyyəsinin 6 milyard dollarlıq hədəfə çatdırılmasına az qalıb. Tərəflər bu rəqəmin 10 milyard dollara yüksəldilməsi barədə razılığa gəliblər. İqtisadi əməkdaşlıqla yanaşı, liderlər Avropada təhlükəsizlik məsələlərini, müdafiə sənayesində əməkdaşlığın genişləndirilməsini, eləcə də elm və innovasiya sahələrində birgə layihələri müzakirə ediblər. “Türkiyə və Macarıstan Avropanın dəyişən təhlükəsizlik ehtiyacları kontekstində müdafiə sahəsində birgə layihələri müzakirə ediblər. Biz mövcud iqtisadi və ticarət mexanizmlərindən maksimum səmərəli istifadə etməyə qərar verdik. Müdafiə sənayesi sahəsində konkret layihələr vasitəsilə həyata keçirilən strateji tərəfdaşlığımızın ticarət və investisiyalara müsbət təsirini də görürük. Avropada dəyişən təhlükəsizlik şəraitini nəzərə alaraq, müdafiə sənayesində əməkdaşlığımızı daha yüksək səviyyəyə çıxaracaq birgə istehsalı nəzərdə tutan layihələrin həyata keçirilməsi perspektivlərini dəyərləndiririk”, - deyə Ərdoğan vurğulayıb.



Türkiyə Prezidenti Macarıstanın Türk dünyasının inkişafına verdiyi töhfəsini qeyd edib və Budapeştə Ankaranın əsas strateji hədəfi olan Avropa İttifaqına tamhüquqlu üzvlüyə göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib.

Bundan əlavə liderlər Ukrayna problemini də müzakirə ediblər. “Ukraynada müharibənin ilk günlərindən etibarən tərəflər arasında ədalətli və davamlı sülhün təmin olunması üçün diplomatiyanın bütün imkanlarını səfərbər edirik. Bu istiqamətdəki səylərimiz dünya ictimaiyyətinə də məlumdur. Bundan sonra da “Müharibənin qalibi, ədalətli sülhün isə məğlubu olmaz” şüarı ilə əlimizdən gələn bütün cəhdləri göstərməyə davam edəcəyik”, - deyə Ərdoğan söyləyib.



Macarıstanın türk dünyası ilə əlaqələrinin ötən əsrdə zəifləndiyini qeyd edən Viktor Orban isə “2010-cu ildən sonra Prezident Ərdoğan bu tarixi pəncərəni açaraq, “Yeni zamanlar başlayır. Fərqli bir dünya olacaq və Türk dünyası çox böyük enerji toplayacaq” dedi. Gördüm ki, onun türk əsri deyilən böyük planı var”-deyə söyləyib. Orban Prezident Ərdoğanın Macarıstanı Türk Dövlətləri Təşkilatına (TDT) müşahidəçi üzv kimi dəvət etdiyini xatırladaraq, o vaxtdan bu yana Türkiyə-Macarıstan əməkdaşlığını və türk dünyası ilə qarşılıqlı əlaqələri davamlı şəkildə inkişaf etdirdiklərini bildirib. Baş nazir bu fürsətdən istifadə etmək istədiklərini vurğulayaraq, “Macarıstanı əhatə edən dünyaya baxanda türk dünyasını həqiqətən səy göstərən, önə çıxan və güclənən bir dünya olaraq görürəm” deyib.

### Orban: Türk dünyasını həqiqətən güclənən bir dünya olaraq görürəm

Orban, həmçinin Rusiya-Ukrayna müharibəsində sülh üçün Türkiyənin yanında olmağın vacibliyini vurğulayaraq, “Döyüş meydanında heç bir həllin olmadığına inanırıq. Əgər döyüş meydanında həll yoxdursa, sülhün təmin edilməsi lazımdır” söyləyib. O, Prezident Ərdoğanın sülh prosesində “yeganə uğurlu vasitəçi oldu” ifadəsini işlədib və sülh məsələsində harmoniya içində hərəkət etməyə qərar verdiklərini sözlərinə əlavə edib.

Orban Türkiyənin miqrasiya siyasətinə görə də Ərdoğana təşəkkür edərək, “Türkiyə Avropanı qorumasaydı, cənubdan Macarıstana qədər Avropada həyat yaşanmaz hala gələrdi. Türkiyə qaçaq miqrasiyaya mane olur” deyib.

### Rusiyadan neft və təbii qaz tədarükü...

Bundan başqa, Baş nazir Rusiyanın Macarıstana neft və təbii qaz tədarükünü davam etdirməsi mövzusunda razılaşdıqlarını ifadə edərək, “Çünki bizim başqa qaynağımız yoxdur” söyləyib. Rusiyadan alacaqları neft və təbii qaz səbəbilə Macarıstana qarşı sanksiyalardan qaçmaq üçün ABŞ ilə razılığa gəldiklərini qeyd edən Orban, bu təbii qazın nəqli və daşınmasına zəmanət verdiyi üçün Türkiyə Prezidentinə təşəkkür edib. O, Türkiyədən verilən bu zəmanətin əhəmiyyətini və zəruriliyini vurğulayaraq, bu il Türkiyədən Macarıstana 7,5 milyard kubmetr təbii qazın nəql olunduğunu qeyd edib. Orban Ərdoğana iki ölkənin ən böyük enerji şirkətləri arasında əməkdaşlığa görə də təşəkkür edib və Macarıstanın Türkiyənin enerji şirkətini Budapeştə dəvət etdiyini bildirib.

Baş nazir “Macarıstan və Türkiyə arasındakı siyasi, enerji, iqtisadi və müdafiə sənayesi əlaqələri ilə bağlı çox yaxşı ümidlərimiz və baxışlarımız var deyib. Avropada müdafiə sənayesinin də əhəmiyyətinin artdığını qeyd edən Orban bu sahədə iki ölkə arasında əlaqələrin artıq qurulduğunu vurğulayıb.

Qeyd edək ki, danışıqlardan sonra Prezident Ərdoğan Macarıstan nümayəndə heyətini sürpriz mədəni proqramla qəbul edib. Xüsusi hədiyyə olaraq Orban Ərdoğana britaniyalı illüstrator William Alexanderin Osmanlı İmperiyasının geyim və gündəlik həyatını əks etdirən əsərini təqdim edib. Bundan əlavə, 2023-cü ildə Budapeştdə Ərdoğana verilmiş “Four” adlı atın vəziyyəti ilə maraqlanıb. Baş nazir gülərək bildirib: “Macarıstan atçılıq sahəsində böyük uğur qazanıb. Türk jandarmı üçün 600 Nonius atı sifariş edilib və ilk onluq atlar bir neçə həftə ərzində Türkiyəyə çatdırılacaq. Deyə bilərik ki, hazırda mən Macarıstanın ən uğurlu at ticarətçisiyəm”.

Bütövlükdə, bu səfər həm iqtisadi, həm də diplomatik baxımdan Macarıstan-Türkiyə əlaqələrində mühüm hadisə kimi qiymətləndirilir.

*Nardar BAYRAMLI*

# Ağappaq əbədi sükut

## Ernest Heminqueyin “Kilimancaronun qarı” hekayəsi haqqında

əvvəli ötən saylarımızda

Oğlunun müsibətindən sonra Ellen məşuqələrıyla əlaqələrini biryolluq kəsir, artıq içkiylə də təsəlli tapmır. Qadının qəlbində yeni həyata başlamaq ehtiyacı bütün gücüylə baş qaldırır: “Öz tənhalığının dəhşətini qadın qəfildən dərk edib bundan bərk qorxuya düşdü. Amma ona elə birisi lazım idi ki, həmin adama hörmət eləyə bilsin... Hər şey çox sadə şəkildə başlandı - qadın onun kitablarını xoşlayır, həyat tərzinə qibtə edirdi. Qadına elə gəlirdi ki, o məhz ürəyinə yatan işi görür, məhz görmək istədiyi işlə məşğuldur. Ona yiyələnmək niyyətiylə atdığı addımlar axırda qadının ürəkdən vurulmasıyla sonuclandı - bütün bunlar qadının öncədən qurmağa hazırlaşdığı həyatın mütənasib şəkildə əks silsiləsi oldu, o isə əvvəlki həyatının artıqlarını satırdı. Satırdı ki, əvəzində təminatlı yaşayış, dəbdəbə qazansın - bunu danmaq olmaz. Qadın ona nə desən almağa, hər bir arzusunu yerinə yetirməyə canla-başla hazırdı. Bundan savayı, bir qadın kimi də qiyamət idi. Yolunu məhz beləsiylə davam etdirməyin əsla əleyhinə deyildi, çünki bu qadın daha varlıydı, daha canayatan idi, özü də məhəbbət məsələlərindən yaxşı baş çıxarırdı, üstəlik, dava-dalaş salıb qan qaraltmırdı. İndisə qadının yenidən qurduğu həyat sona yetmək üzrəydi...”

Bütün bunları düşündükcə Harri ona ana şəfqəti göstərən qadını incitdiyinə peşman olur, ölümüylə Ellenə daha bir zərbə vuracağını anlayıb mənasız mübahisələrə son qoyur: “Bu qadınla heç zaman məxsusi öcəşməzdi, sevdiyi o biri qadınlarla isə yaman tez-tez çəkişər, o qədər höcətləşərdi ki, axırda umu-küsünün pası onları bir-birinə bənd eləyən zənciri çürüdüb sıradan çıxarardı. O, hədsiz dərəcədə bərk sevirdi, hədsiz dərəcədə çox şey tələb edirdi, axırda da heç nəsiz qaldı”.

***

Harri ölüm ayağında yazmalı olduğu materialları, şahidlik elədiyi dəhşətli həyat səhnələrini bir-bir gözünün qarşısından keçirir, xəyalında onları bir sapa düzüb, bir kitaba, bir hekayəyə, hətta bir abzasa, bir cümləyə, Folknerin dediyi həmin o iynənin gözünə yığmağın fantastik yollarını arayır:

“O qədər işlər olmuşdu, yazılası o qədər mətləblər vardı, gəl görəsən. Həmişə də fikirləşirdi ki, günlərin bir günü, nəhayət, bu barədə yazacaq. Bunların hamısını o özü yaşamışdı, hamısını öz gözüylə görmüşdü, bu barədə yazmağa borclu idi, amma indi daha yazmayacağı dəqiqdir...

- Mən yazmaq istəyirəm, - o dedi.

- Bir az bulyon iç ki, canın bərkisin.

- Mən bu gün öləcəm. Canımın bərkiməsi mənim nəyimə gərək?!

- Harri, faciə düzəltmək lazım deyil, - qadın dedi.

- Sən bəyəm iybilmə qabiliyyətini itirmisən? Ayağım yarıyacan çürüyüb. Bulyonu neynirəm! Molo, mənə sodalı viski gətir.

- Bulyon iç, xahiş edirəm səndən, - qadın nəvazişlə dilləndi...

- Sən stenoqrafik üsulla yazmağı bacarırsan?

- Yox, bacarmıram, - qadın dedi.

- Eybi yox, elə də vacib deyil.

Əlbəttə, daha vaxt çatmazdı, amma bütün bunlar bir-birinə elə bitişikdi, o qədər iç-içəydi, hamısını bir abzasa sığışdırmaq mümkün kimi görünürdü...”

Harri Smit əmindir ki, işdi-şayəd, əgər ölməyib sağ qalsa, bu qadından, elə o biri kübar qadınlardan da heç vaxt heç nə yazmayacaq, çünki varlılar darıxdırıcı məxluqlardır.

***

Çənəsi ölüm tələsi gorəşən əcaib səslər çıxara-çıxara Harrinin yatdığı çadırın böyür-başında əcəl elçisi kimi sülənir. Leş yeyən quşlar gündüzdən müjdə gözləyirlər. Harri Smit sonuncu yuxusuna dalır:

“Ölüm bir az da qabağa gəldi, indi o daha ölümlə danışa bilmirdi; onun danışa bilmədiyini görəndə ölüm lap irəli yeridi, o da cəhd elədi ki, ölümü səssizcə qovsun, amma sinəsindən basabasa ölüm elə hey yuxarı dırmaşırdı, dırmaşa-dırmaşa axırda çıxıb düz sinəsinin üstündə oturdu, özü də onu nə tərpənməyə qoydu, nə ağzını açıb danışmağa; həmin anda o, qadının səsini eşitdi:

- Bvana yuxuladı. Çarpayını qaldırın, aparın içəri, amma ehtiyatla.

O deyə bilmədi ki, ölümü qovsunlar; ölüm də bütün ağırlığını onun üstünə salıb nəfəs almasına imkan vermədi. Nökərlər çarpayını qaldıranda birdən hər şey keçib getdi, sinəsinin üstündəki ağırlıq da qəfildən yoxa çıxdı”.

Harri Smitin yaralı gövdəsinin macərası burada tamama yetir.

Ancaq onun gördüyü yuxu davam eləyir. Bu, artıq yuxu deyil, bədəndən çıxan ruhun yeni macərasıdır.

davamı növbəti sayımızda



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# 16 günlük kampaniya...

## Gender əsaslı zorakılıq barədə debat keçirilib

Son illər ölkəmizdə gender əsaslı zorakılıq məsələsi mütəmadi müzakirə olunan mövzulardandır. Bununla bağlı təkcə cəmiyyətdə deyil, həm də dövlət orqanlarında və beynəlxalq təşkilatlarda müzakirələr getməkdədir. Gender əsaslı zorakılıq qadınlara qarşı müxtəlif formada zorakılıq və təzyiqləri əhatə edir, məsələn, fiziki zorakılıq, psixoloji təzyiqlər və iqtisadi istismar. Ölkəmizdə bu mövzuya dair müzakirələr bir neçə əsas sahədə cərəyan edir.

Əslində gender əsaslı zorakılıq həm kişilərə, həm qadınlara qarşı baş verə bilər, amma çox vaxt qadınlar bu növ zorakılığa daha çox məruz qalır. Zorakılıq, xüsusən də ətraf mühitin və sosial strukturların müəyyən gender rolunu təbliğ etdiyi cəmiyyətlərdə daha geniş yayılır.

### Gender əsaslı zorakılıq ciddi hüquq pozuntusudur

Bu günlərdə Azərbaycanda gender əsaslı zorakılıq barədə debat keçirilib. Debatda çıxışı zamanı Avropa İttifaqının (Aİ) Azərbaycandakı səfiri Mariyana Kuyunciç bildirib ki, gənc nəsil formalaşmış təbliğat klişelərini dəyişmək, stereotiplərə və zərərli normalara meydan oxumaq, eləcə də hörmət, bərabərlik və emosional təhlükəsizliyə əsaslanan münasibətlər qurmaq gücünə malikdir.

O, bildirib ki, gender əsaslı zorakılıq ciddi hüquq pozuntusudur: "Bu, qadın və qızların cəmiyyətdə tam iştirakına mane olur. Buna sona qoymaq bizim birgə borcumuzdur.

Zorakılığın hər növü cəmiyyətin irəliləməsi üçün ciddi maneədir. Gender əsaslı zorakılığa qarşı mübarizədə, hər bir insanın, hər bir vətəndaşın üzərinə böyük bir məsuliyyət düşür. Yalnız bu şəkildə, bərabər hüquqlara sahib və zorakılıqsız bir gələcək qurmağımız mümkündür".

### Bəzən vəziyyət o qədər şiddətlənir ki...

Səfir qeyd edib ki, maraqlı olan digər bir başqa məqam gender əsaslı zorakılığın yalnız fiziki deyil, həm də psixoloji təsirlərə yol açmasıdır: "Zorakılıq halları ilə bağlı statistik məlumatlar çox zaman qorxunc olsa da, bu statistikaların çoxu yalnız qeydə alınan və hüquq-mühafizə orqanlarına bildirən halları əhatə edir. Cinsiyyətə görə təzyiq, müasir cəmiyyətin müxtəlif təbəqələrində xüsusi bir forma alıb. Hətta bəzən bu vəziyyətlər o qədər şiddətlənir ki, qurbanlar özlərini sosial təcrid olunmuş hiss edirlər və bu, onları daha da zəif edir.

Dövlətlərin, beynəlxalq təşkilatların və qeyri-hökumət təşkilatlarının gender əsaslı zorakılığa qarşı mübarizədə atdığı addımlar nəzərəçarpandır. Bir çox ölkələr qanunlar qəbul edərək zorakılığın qarşısını almağa çalışır. Lakin bu qanunların tətbiqi, zəif sosial strukturlar və məhkəmələrdə mövcud olan stereotiplər səbəbindən çox vaxt təsirsiz qalır. Zorakılığa məruz qalan şəxslər, xüsusilə qadınlar, bəzən qorxu və əzablarla dolu məhkəmə prosesləri ilə üzləşirlər".

### Yalnız qanuni tədbirlərlə kifayətlənmək olmaz

Mariyana Kuyunciçin sözlərinə görə, gender əsaslı zorakılığın qarşısını almağın ən təsirli yolu, yalnız qanuni tədbirlərlə kifayətlənmək deyil: "Əsas dəyişiklik cəmiyyətdəki düşüncə tərzində və münasibətlərdə olmalıdır. Cinsiyyət stereotipləri ilə mübarizə, cinsiyyət bərabərliyinin təbliği, təhsil və maarifləndirmə ilə başlaya bilər. Əgər biz cəmiyyətdə qadın və kişilərin bərabər hüquqlara malik olduğuna inanırıqsa, o zaman zorakılığa qarşı mübarizə daha effektiv olacaqdır. Həmçinin, hər bir fərdin öz kimliyini və seçimlərini qəbul edən, təzyiq və zorakılıqdan azad bir dünya qurmaq lazımdır".



Qeyd edək ki, tədbirin məqsədi amerikalı müəllif Kollin Huverin müəllifi olduğu "Hər şey bizimlə bitəcək" kitabında əks olunan bəzi mövzulara diqqət çəkərək gender əsaslı zorakılıq barədə müzakirə aparmaqdır.

Tədbir "Hər şey bizdən başlayır. Qadın və qızlara qarşı zorakılığa son qoyaq" şüarı aylığında həyata keçirilən Aİ-nin "Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyası çərçivəsində baş tutub. Kampaniyanın məqsədi gender əsaslı zorakılığın bütün formalarının qarşısını alaraq, onların aradan qaldırılması üçün məlumatlandırmanı artırmaqdır.

Kampaniya noyabrın 25-də, Qadınlara Qarşı Zorakılığın Ləğvi üzrə Beynəlxalq Gündə başlayıb və dekabrın 10-da Beynəlxalq İnsan Hüquqları Günündə sona çatıb.

*Yeganə*


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti üzrə hazırlanmışdır**


# İnsan hüquqları...

## Yaşamaq, yaratmaq, inkişaf etmək üçün!

İnsan dünyaya gəldiyi gündən ölümünə qədər ona məxsus olan hüquq və azadlıqları ilə yaşayır. İrqindən, dinindən, yaşından və cinsindən asılı olmayaraq Yer üzündə hər bir insanın hüquqları var. İnsanın hüquq və azadlıqları bütövdür, toxunulmazdır, sərbəstdir. Hətta hər hansı səbəbdən cinayət törədərək həbsxanaya düşən insanın da öz hüquqları var.

Hüququ olmaq, qanadlı quş olub mavi səmada pərvazlanıb uçmaq kimidir. Yaranışından kamil olan insanın yaşamaq, təhsil almaq, ailə qurmaq, övlad dünyaya gətirmək və s. hüquqları var. İntellektli, dünyagörüşlü insan daim öz üzərində çalışaraq irəliyə doğru can atır, qurub yaradır. Azad, hüquqlu, bilikli insan cəmiyyət, dövlət üçün gərəkli işlər görür, ölkəsinin müstəqilliyi, inkişafı üçün öhdəsinə düşən vəzifəni yerinə yetirməyə çalışır.

Yeri gəlmişkən, dekabrın 10-u Ümumdünya İnsan Hüquqları Günüdür. 1948-ci ildə BMT-nin Baş Məclisi tərəfindən İnsan Hüquqları üzrə Ümumi Bəyannamə qəbul olunub. 1950-ci ildən başlayaraq isə hər il dekabr ayının 10-da bütün dünyada "Beynəlxalq İnsan Hüquqları Günü" kimi qeyd olunur.

### Cəmiyyətin əsas meyarı...

İnsan hüquqlarının əsas mahiyyəti ondan ibarətdir ki, bütün insanlar eyni hüquqa malik olmalıdırlar. Vətəndaşın hüquqları onun müəyyən dövlətə məxsusluğu ilə bağlıdır və vətəndaşlar dövlət tərəfindən müdafiə olunur. İnsan hüquqları ləyaqət, ədalət, bərabərlik, hörmət və müstəqillik kimi ortaq dəyərlərə əsaslanır. Bu dəyərlər qanunla müəyyən edilir və qorunur. Beynəlxalq ictimai hüquqda onları təsdiqləyən ən məşhur sənəd BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsidir.

Bərabərlik demokratiyanın ən vacib prinsipidir və bütün vətəndaşlar irqindən, milliyyətindən, cinsindən, yaşayış yerindən, cəmiyyətdəki mövqeyindən, dini və siyasi etiqadından asılı olmayaraq qanun qarşısında bərabərdir. Bu prinsipin pozulması ayrı-seçkilik adlanır. Bərabərlik insan hüquqlarını və məhdudiyyətlərini ehtiva edir.



### Qanunlar olmayan yerdə azadlıq da yoxdur

Avropada ilk dəfə insan hüquqları anlayışı intibah dövrünə təsadüf edir və ilk dəfə olaraq "insan hüquqları" ifadəsinə 1789-cu ildə qəbul edilmiş Fransanın İnsan və Vətəndaş Hüquqları Bəyannaməsində rast gəlinib. 17-ci əsrdə yaşamış ingilis filosofu Con Lokk öz əsərində təbii hüquqları yaşamaq, azadlıq və mülkiyyət hüquqları kimi xarakterizə edib. Con Lokk iddia edirdi ki, bu əsas hüquqlar ictimai müqavilədə əks etdirilə bilməz. 1689-cu ildə Böyük Britaniyada qəbul edilmiş hüquqlar haqqında qanuna görə, dövlət orqanlarının zülmkar hərəkətləri qanunsuz hesab edilib.

### Bu ölkələrdə insan hüquqları çox pozulur

İnsan hüquqları pozulmalarının geniş yayıldığı ölkələr arasında Şimali Koreya, Suriya, Myanma, İran, Əfqanıstan, Çin, Venesuela, Efiopiya və digər münaqişəli bölgələrdəki dövlətlər qeyd olunur. Bu pozulmalar siyasi məhbuslar, ifadə azadlığının məhdudlaşdırılması, zorakılıq, diskriminasiya və uşaq istismarı kimi geniş spektrdə olur.

Bu gün təkcə təqvimdə bir tarix deyil. Bu, həm də insanların bir-birinə olan hörmətinin, ədalətə inamının və azadlıq arzusunun simvoludur. Hüquqların yox olduğu yerdə insan da məhv olur, hüquqların qorunduğu yerdə isə insan özünü dərk edir, inkişaf edir, yaşayır, yaradır.

*Yeganə BAYRAMOVA*





### Bakcell bonuslarla zəngin yeni "GO" tariflərini təqdim edir

İnnovasiya lideri Bakcell danışıq dəqiqələri, internet, SMS paketləri, rouminq və digər üstünlüklərlə bol yeni "GO" tariflərini təqdim edir. 0.99 AZN-dən başlayan "Go" tariflərindən birinə qoşulmaqla abunəçilər, həmçinin "WhatsApp", "Facebook", "Instagram", "TikTok" və "YouTube" platformalarında istifadə üçün əlavə internet bonusları əldə edəcəklər.

Məsələn, "GO 11.99" tarifi çərçivəsində "Bakcell" abunəçiləri 5 GB internet, 300 ölkə daxili danışıq dəqiqəsi, bütün istiqamətlər üzrə 150 SMS və "WhatsApp"da limitsiz yazışmaq imkanı qazanacaqlar. Sözügedən tarifə qoşulmaq üçün sadəcə *905#YES kodunu yığmaq kifayətdir. Qeyd edək ki, cari tariflərdən yeni "GO" tariflərinə keçid tamamilə ödənişsizdir.

"GO" tarifləri barədə ətraflı məlumatı rəsmi sayt, həmçinin Bakcell mobil tətbiqindən əldə edə bilərsiniz.

Bakcell haqqında

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

Bakcell müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.



Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4826**
**Sifariş: 2513**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova